# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 250 (8566) BAZAR, 29 noyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






> “Hər kəs bizim gücümüzü gördü, hər kəs bizim dəmir yumruğumuz nədir, anladı”.
>
> ***İlham ƏLİYEV***

**Qədim Azərbaycan atalar sözüdür:**

**“Dua oxumaqla donuz darıdan çıxmaz!”**

Görünür, müdrik babalarımız bu sözü ermənilərə baxaraq yaradıblar.

Çünki son 27 ildə bu qudurmuş millətin simasında onun təsdiqinin dönə-dönə şahidi olduq:

*Ermənilər “sülh danışıqları yolu ilə” - yəni ATƏT-in oxuduğu “dualarla” işğal etdikləri Azərbaycan ərazilərindən çıxmadılar!*

**Onları Müzəffər Ali Baş Komandan İlham Əliyevin dəmir yumruğu çıxardı.**

**Deməli, “dua”dan yumruq təsirli imiş!**

❖ ❖ ❖

Əgər kimsə düşünürsə ki, yumruq yalnız zorakılıq əlamətidir, ciddi səhv edir!

**Yumruq həm də təsirli tərbiyə vasitəsidir!**

**Çünki yolunu azmış adamları ağıllandıra bilir!**

Necə deyərlər:

- Qanmazı qandırır!
- Anlamazı başa salır!
- İslaholunmazı düz yola qaytarır!
- Bir sözlə, dəyişməzi dəyişir!

Amma baxır adamına.

Atalar həm də deyib ki, yüyürən at qamçı yeməz!

**Paşinyan kimilərini isə yalnız yumruqla başa salmaq mümkündür!**

**Özü də adi yumruqla yox!**

**Dəmir yumruqla!**

❖ ❖ ❖

**“Dəmir yumruq” beş barmaqdan yaranır və hər barmağın öz mənası var.**

- **Baş barmaq rəhbərin müdrükliyinin və uzaqgörənliyinin, zəka və bacarığının, habelə iradə, qətiyyət və mənəvi gücünün göstəricisidir!**

Sonrakı barmaqlar isə:

- Dövlətin iqtisadi və siyasi müstəqilliyini, dayanıqlığını;
- Dünya diplomatiyasında yerini və nüfuzunu, çəkisini;
- Ordunun gücünü, silahlanmasının müasirliyini və keyfiyyətini, eyni zamanda əsgər və zabitlərinin peşəkarlığını və qəhrəmanlığını, cəsarət və şücaətini;
- Ən nəhayət, iqtidarla xalqın vəhdətini, milli birliyi və həmrəyliyi əks etdirir.

*Ardı 3-cü səh.*

# İndi Azərbaycan regionun həm də qalib dövlətidir

## İlham Əliyev tarixi Qələbə ilə respublikamızın Cənubi Qafqazdakı liderliyini və beynəlxalq mövqelərini daha da möhkəmləndirdi

İkinci Qarabağ müharibəsində qazanılan Qələbə Azərbaycanın müstəqillik və bütövlükdə dövlətçilik tarixinin mühüm hadisəsi oldu. Torpaqlarımızın işğaldan azad edilməsi göstərdi ki, İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan həqiqətən tarixinin ən qüdrətli dövrünü yaşayır. Bu gün hər bir azərbaycanlı haqlı olaraq Cənubi Qafqazın yalnız lideri deyil, həm də qalib dövlətinin vətəndaşı olmasıyla fəxr edir.

### Ordumuz hansı gücə malik olduğunu döyüş meydanında göstərdi

44 günlük müharibənin ilk günlərindən Azərbaycan Ordusu vətənpərvərlik dastanı yazdı, bütün dünyaya əsl qəhrəmanlığın, vətən uğrunda necə mübarizə aparmağın nümunəsini göstərdi. Bir-birinin ardınca rayonlarımızın, kənd və şəhərlərimizin alınması ilə ordumuz hansı qüdrətə, hansı əzmə malik olduğunu birbaşa döyüş meydanlarında göstərdi. Hər bir kəndin, qəsəbənin, şəhərin azad olunması xalqımız tərəfindən el bayramı kimi, böyük sevinclə qarşılandı. Uğurla həyata keçirilən hərbi əməliyyatlar isə ilk növbədə Azərbaycan Silahlı Qüvvələrinin gücü ilə bağlı deyilənlərin əyani təsdiqi oldu.

Respublikamıza rəhbərliyinin ilk günlərindən ordunun döyüş qabiliyyətinin artırılması, ən müasir hərbi texnikanın alınması Ali Baş Komandan İlham Əliyevin qarşıya qoyduğu prioritet vəzifələrdən idi. Bu məqsədlə aparıcı hərbi sənaye kompleksi olan ölkələrlə sıx əməkdaşlıq əlaqələri yaradıldı.

*Ardı 3-cü səh.*

# Koronavirusun artmasını istəmiriksə, məsuliyyətli olmalıyıq



Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) COVID-19 adlandırılan infeksiyanı pandemiya elan etdiyi gündən doqquz aya yaxın bir zaman keçir.

Dünyanın qabaqcıl mütəxəssisləri, səhiyyə təşkilatları bu təhlükəli virusa əlac olacaq dərman axtarışını davam etdirirlər. Ancaq hələ ki ümidləri doğruldan cavab yoxdur. Qlobal bəla isə kabus kimi dünyanın başının üstündə dolaşmaqda, can almaqdadır. Təəssüf ki, hər gün koronovirusa yoluxanların və bu xəstəlikdən dünyasını dəyişənlərin sayında rekord nəticələrin yeniləndiyinin şahidi oluruq.

Dünyada yeni növ koronavirus infeksiyasına yoluxanların sayı 62 milyonu ötüb. Hər gün dünyada koronavirusla bağlı statistika yenilənir. Çox təəssüf ki, bu “yenilik” bəşəriyyətin təşvişini daha da artırır. Səhiyyə sisteminin inkişafı ilə öyünən düyanın iri, qabaqçıl ölkələrinin bu siyahıda ön sıralarda yer alması da COVID-19-un təhlükəsinin böyüklüyündən xəbər verir.

*Ardı 5-ci səh.*

# “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

2.2. həmin Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 noyabr 2020-ci il*

# Əsgər anaları Paşinyandan hesabat tələb edirlər

## Ermənistan rəhbərliyi isə həbslər aparmaqla ictimai qəzəbdən xilas olmaq istəyir

Ermənistandakı vəziyyət hakimiyyətə qarşı narazılığın miqyasının gündən-günə genişləndiyini göstərir. Müharibədəki məğlubiyyətdən sonra Paşinyan iqtidarının durumu daha da ağırlaşıb. Ermənistan mətbuatının yazdığına görə, 44 günlük müharibə göstərdi ki, ölkənin idarəetmə proseslərinin kökündəki sistem və struktur problemləri dərinləşib. Bu fonda isə ölkədə vətəndaş faktoru hiss olunacaq dərəcədə fəallaşıb. Bunu sosial şəbəkələrdə daha qabarıq görmək mümkündür.

### Baş nazir psixi pozuntulardan əziyyət çəkir

Çətin duruma düşən Ermənistan rəhbərliyi vəziyyətdən çıxış yolunu günahkar axtarışında və həbslər aparmaqla, kadr dəyişiklikləri həyata keçirməklə ictimai qəzəbdən xilas olmaqda görür. Amma onların bu addımları da ictimai qəzəbi azaltmır. Artıq Ermənistanın Xüsusi İstintaq Xidməti ordunun baş qərargahının sabiq rəisi, ikinci Qarabağ müharibəsi dövründə baş hərbi müfəttiş olan general M.Akopyanın mətbuat konfransında hakimiyyəti kəskin tənqid etdikdən sonra ona qarşı cinayət işi başladıb. Akopyan deyib ki, Nikol Paşinyan psixi pozuntulardan əziyyət çəkir. O, ordunun, müharibənin nə olduğunu bilmir. Akopyan hələ müharibə zamanı Ermənistan Müdafiə Nazirliyinin ictimaiyyətə ötürdüyü məlumatların yüz faizinin yalan olduğunu, müharibənin ilk 5 günündə ordudan 1500 nəfərin fərarilik etdiyini bildirmişdi.

*Ardı 8-ci səh.*



# Fransanın təxribatları cavabsız qalmayacaq

## Paris Azərbaycandakı mövqelərini itirə bilər

Cənubi Qafqazda cərəyan edən hadisələr iki aya yaxındır dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Bu da səbəbsiz deyil. Keçmiş SSRİ-nin süqutundan sonra bu həssas regionda meydana çıxmış ilk münaqişənin - Ermənistan-Azərbaycan münaqişəsinin hərtərəfli tənzimlənməsi üçün şərait yaranmışdır.

Azərbaycan, Rusiya və Ermənistan liderlərinin noyabrın 9-da əldə etdikləri razılaşmaya uyğun olaraq, Azərbaycan Ordusu sentyabrın 27-də başlatdığı əks-hücum əməliyyatını problemin siyasi vasitələrlə həlli naminə dayandırmış, Ermənistan işğal etdiyi torpaqlardan çəkilməyə başlamışdır. Artıq Ağdam və Kəlbəcər rayonları boşaldılmış, gələn ayın 1-dək isə Ermənistan silahlı qüvvələri və qanunsuz məskunlaşmış mülki əhali Laçın rayonundan çıxmalıdır.

Eyni zamanda üçtərəfli razılaşmaya əsasən, bölgədəki iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsi, eləcə də Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılması nəzərdə tutulur. Artıq bu istiqamətdə də işlər görülür, ardıcıl addımlar atılır.

*Ardı 8-ci səh.*

# İqtisadi Şuranın növbəti iclası keçirilib





Noyabrın 27-də Baş nazir Əli Əsədovun sədrliyi ilə İqtisadi Şuranın videomüşavirə formatında növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası Prezidentinin göstərişinə əsasən İqtisadi Şura işğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı konsepsiyasının əsas parametrlərini müzakirə edib.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına dair digər məsələlər müzakirə olunub, müvafiq qərarlar qəbul edilib.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir

## Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün MİLLİ FƏALİYYƏT PLANI

**1. Giriş**

İnsan hüquqlarının tərkib hissəsi olan qadın və uşaq hüquqları, gender bərabərliyi sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi və yeni normativ hüquqi aktların qəbul edilməsi bu sahələrdə müsbət nəticələrin əldə edilməsinə səbəb olmuşdur. Ölkəmizin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" və "Uşaq hüquqları haqqında" BMT konvensiyalarına qoşulması, qadın və uşaq hüquqları sahəsində dövlət siyasətinin formalaşması, normativ hüquqi bazanın təkmilləşdirilməsi, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası qanunlarının qəbul edilməsi və institusional islahatlar bu istiqamətdə atılan mühüm addımlardır. Qadınların cəmiyyətin bütün sahələrində fəallığının artırılması, uşaq problemlərinin həllinin önə çəkilməsi istiqamətində görülən işlər, siyasi, iqtisadi və sosial sahələrdə gender bərabərliyi amilinə daha çox əhəmiyyət verilməsi insan hüquqlarının qorunmasına öz bəhrəsini verməkdədir.

Lakin təcrübə göstərir ki, fundamental insan hüquqlarının məhdudlaşdırılması və pozulması halları, zorakılıq, o cümlədən cinsi mənsubiyyətə görə zorakılıq halları cəmiyyətin aşkar mənfi münasibətinə və dözümsüzlüyünə, habelə son illərdə Azərbaycan Respublikasının həyata keçirdiyi təsirli tədbirlərə baxmayaraq, dünyanın bir çox ölkələrində olduğu kimi, ölkəmizdə də problem olaraq qalmaqdadır.

İnkişaf etmiş bir çox ölkələrdə (ABŞ, Kanada, İsveç, Fransa və s.) məişət zorakılığının qarşısının alınmasına böyük məbləğdə büdcə vəsaiti ayrılır. Araşdırmalar göstərir ki, həmin vəsait sonradan zorakılıqdan əziyyət çəkənlərə xərclənən vəsaitə qənaət edilməsinə imkan yaradır. Bu ölkələrdə profilaktik tədbirlərin həyata keçirilməsi, qaynar xətlərin yaradılması, zorakılıq qurbanlarının reabilitasiyasını həyata keçirən və təhlükəsizliyini təmin edən yardım mərkəzlərinin, sığınacaqların təşkili məsələlərinə xüsusi diqqət yetirilir. Belə fəaliyyətlərin həyata keçirilməsində, həmçinin qeyri-hökumət təşkilatlarının da rolu əhəmiyyətlidir.

Məişət zorakılığının qarşısının alınması istiqamətində görülən işlərin səmərəliliyini artırmaq üçün qabaqlayıcı tədbirlərin gücləndirilməsi, zorakılıqdan zərər çəkmiş şəxslərə təxirəsalınmaz və hərtərəfli yardım göstərilməsi və bu məqsədlə beynəlxalq standartlara uyğun müvafiq infrastrukturun yaradılması, məişət zorakılığı ilə mübarizə sahəsində dövlət orqanlarının (qurumlarının) potensialının artırılması, qeyri-hökumət təşkilatlarının dəstəklənməsi, uzunmüddətli və kompleks yanaşma tələb olunur.

Bunlar nəzərə alınaraq, "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı" (bundan sonra - Milli Fəaliyyət Planı) hazırlanmışdır.

**2. Milli Fəaliyyət Planının məqsədi, istiqamətləri və əsas prinsipləri**

2.1. Milli Fəaliyyət Planının əsas məqsədi ölkədə məişət zorakılığının qarşısının alınması üzrə tədbirlərin beynəlxalq standartlara uyğunlaşdırılması, ailələrin möhkəmləndirilməsi naminə onların vaxtında və hərtərəfli yardımla təmin edilməsi, məişət zorakılığı ilə mübarizə sahəsində normativ hüquqi aktlarda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi və səmərəliliyinin artırılmasıdır.

2.2. Milli Fəaliyyət Planı aşağıdakı istiqamətlər üzrə həyata keçirilən tədbirlərin davamlılığını təmin edir:

2.2.1. məişət zorakılığı ilə mübarizə sahəsində normativ hüquqi bazanın beynəlxalq təcrübəyə uyğunlaşdırılması;

2.2.2. məişət zorakılığının qarşısının alınması və onunla mübarizə sahəsində məlumatlandırma və maarifləndirmə tədbirlərinin təşviqi;

2.2.3. məişət zorakılığından zərər çəkmiş şəxslərin aşkarlanması və erkən identifikasiyası;

2.2.4. məişət zorakılığından zərər çəkmiş şəxslərin müasir standartlara uyğun yardım xidmətləri ilə təmin olunması;

2.2.5. məişət zorakılığından zərər çəkmiş şəxslərin səmərəli müdafiəsi sisteminin formalaşdırılması.

2.3. Milli Fəaliyyət Planı qeyd edilən məqsədlərə nail olunması üçün müəyyən edilmiş tədbirləri, onların icra olunmasında dövlət orqanlarının (qurumlarının), qeyri-hökumət təşkilatlarının, beynəlxalq tərəfdaşların və digər qurumların iştirakını və fəaliyyətinin əlaqələndirilməsini, həmçinin məişət zorakılığının qarşısının alınmasını və onunla mübarizə sahəsində digər tədbirləri nəzərdə tutur.

2.4. Milli Fəaliyyət Planının həyata keçirilməsi zamanı aşağıdakı prinsiplər əsas götürülür:

2.4.1. zorakılığın bütün formalarının yolverilməzliyi;

2.4.2. insan hüquqlarına və azadlıqlarına hörmətin təşviqi;

2.4.3. gender bərabərliyinin təmin olunması;

2.4.4. məişət zorakılığının qarşısının alınması;

2.4.5. məişət zorakılığından zərər çəkmiş şəxslərin, xüsusən qadın və uşaqların təhlükəsizliyinin və müdafiəsinin prioritetliyi;

2.4.6. bütün müdaxilə tədbirlərində zərər çəkmiş şəxslərin müstəqilliyinə hörmət edilməsi və onların öz həyatlarına dair qərar verə bilməsinin üstünlüyü;

2.4.7. məişət zorakılığının uşaqlara mənfi təsirinin nəzərə alınması və onun nəticələrinin minimuma endirilməsi;

2.4.8. məişət zorakılığı törətmiş şəxslərin məsuliyyəti.

**3. Məişət zorakılığı ilə mübarizə sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi**

3.1. Məişət zorakılığı ilə mübarizə sahəsində normativ hüquqi baza Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsindən, Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən, "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanunundan və Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi normativ hüquqi aktlardan ibarətdir.

3.2. Məişət zorakılığı sahəsində mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması istiqamətində müəyyən işlər görülməsi zəruridir.

**4. Məişət zorakılığının qarşısının alınması və zorakılığa yol verilməməsinin təşviqi**

4.1. Məişət zorakılığı probleminin və onun doğurduğu nəticələrin aradan qaldırılmasının uzunmüddətli həllinə nail olmaq üçün məişət zorakılığının qarşısının alınması və bu sahədə preventiv tədbirlər görülməsi əsas prioritet istiqamətlərdəndir. Zorakılığa yol verilməməsinin təşviqi əhalinin müxtəlif qrupları üçün nəzərdə tutulmuş məlumatlandırma və maarifləndirmə tədbirlərini əhatə edir.

4.2. Məişət zorakılığının qarşısının alınması və zorakılığa yol verilməməsinin təşviqi aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

4.2.1. insan hüquqlarına və azadlıqlarına hörmətə əsaslanan münasibətlərin təşviqi;

4.2.2. qadınlar və kişilər arasında bərabər münasibətlər qurulmasının təşviqi;

4.2.3. məişət zorakılığına sosial dözümlülüyün azaldılması və heçə endirilməsi, mövcud mənfi stereotiplərin dəyişdirilməsi üçün bu sahədə ictimai məlumatlılığın artırılması;

4.2.4. məişət zorakılığından zərər çəkmiş şəxslərin, eləcə də zorakılığın bu növünə məruz qalmağa həssas olan əhali qruplarının əlçatan yardım və müdafiə resurslarına dair məlumatlandırılması;

4.2.5. məişət zorakılığı da daxil olmaqla, qadına qarşı zorakılığa münasibətdə stereotiplərin dəyişməsində və bu problemə yeni yanaşmanın formalaşmasında medianın rolunun gücləndirilməsi.

**5. Məişət zorakılığına məruz qalan şəxslərin aşkarlanması və erkən identifikasiyası**

5.1. Məişət zorakılığına məruz qalan şəxslərin aşkarlanması və erkən identifikasiyası məişət zorakılığı ilə mübarizə sahəsində əsas strategiyalardan biridir.

5.2. Məişət zorakılığına məruz qalan şəxslərin aşkarlanması və erkən identifikasiyası aşağıdakı tədbirlərin həyata keçirilməsi yolu ilə reallaşdırılır:

5.2.1. məişət zorakılığına məruz qalan şəxslərin onu etiraf edə bilməsi üçün etibarlı şərait yaradılması yolu ilə, zərər çəkmiş şəxslərin yaranmış vəziyyətlə bağlı susmasının qarşısının alınması və zorakılığın təkrarlanması riskinin azaldılması;

5.2.2. məişət zorakılığından zərər çəkmiş şəxslərə və onların uşaqlarına dəstək mərkəzləri yaradılmasının və psixoloji reabilitasiya kurslarının təşkilinin təmin edilməsi;

5.2.3. məişət zorakılığı törətmiş şəxslərlə psixoloji reabilitasiya işi apararaq zorakılığın təkrarlanmamasına və onların öz zorakı əməllərinə görə məsuliyyət hiss etmələrinə nail olunması.

**6. Məişət zorakılığından zərər çəkmiş şəxslərin yardım mərkəzləri və sığınacaqlarla təmin olunması**

6.1. Məişət zorakılığından zərər çəkmiş şəxslərin və onların uşaqlarının zorakılıqdan sonra həyatlarını yenidən qurmalarına kömək etmək üçün psixoloji və tibbi yardım da daxil olmaqla, onlara göstərilən xidmətlərin böyük əhəmiyyəti vardır. Zorakılığa məruz qalmış və ya zorakılığa məruzqalma riski altında olan qadınların ehtiyaclarının xüsusi təlim keçmiş mütəxəssislərin köməyi ilə ən səmərəli şəkildə qarşılanması üçün həmin xidmətlər yaxşı təşkil olunmalı və maliyyələşdirilməlidir.

6.2. Məişət zorakılığından zərər çəkmiş şəxslər üçün yardım mərkəzlərinin yaradılması aşağıdakı vəzifələrin icrasını nəzərdə tutur:

6.2.1. məişət zorakılığından zərər çəkmiş şəxslərin beynəlxalq standartlara cavab verən, onların ehtiyaclarını tam qarşılaya bilən müvəqqəti sığınacaqla təmin edilməsi;

6.2.2. yardım mərkəzlərinin ixtisaslı kadrlarla təmin olunması;

6.2.3. yardım mərkəzlərində mütəmadi olaraq monitorinqlərin aparılması və onların fəaliyyətinin yaxşılaşdırılması.

**7. Məişət zorakılığından zərər çəkmiş şəxslərin səmərəli müdafiəsi sisteminin formalaşdırılması**

7.1. Məişət zorakılığından zərər çəkmiş şəxslərə zəruri yardım göstərilməsi, təhlükəsizlik tədbirlərinin görülməsi, mühafizə orderlərinin verilməsi, məişət zorakılığı törətmiş şəxslərin qeydiyyata alınması və onlarla tərbiyəvi qabaqlayıcı işlərin aparılması zərər çəkmiş şəxslərin və onların ailə üzvlərinin təhlükəsizliyinin təmin olunmasını mümkün edir və zorakılığın təkrarlanmasının qarşısını almağa, məişət zorakılığı törətmiş şəxslərə öz zorakı əməllərinə görə məsuliyyət hiss etdirməyə imkan verir.

7.2. Məişət zorakılığından zərər çəkmiş şəxslərin səmərəli müdafiəsi sisteminin formalaşdırılması aşağıdakı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

7.2.1. məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsində vəkillər, prokurorlar və polis orqanlarının əməkdaşları üçün təlimlərin keçirilməsi;

7.2.2. məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsində məhkəmə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması;

7.2.3. hüquq mühafizə orqanları, məhkəmə orqanları və məişət zorakılığından zərər çəkmiş şəxslər üçün yaradılmış yardım mərkəzləri arasında qarşılıqlı əlaqə qurulması;

7.2.4. məişət zorakılığından zərər çəkmiş şəxslərin bu sahədə məlumatlılığının artırılması, onların polis və məhkəmə orqanlarına etimadının artırılması məqsədilə əlverişli mühit yaradılması;

7.2.5. məişət zorakılığından zərər çəkmiş şəxslərin məşğulluq imkanlarının artırılması məqsədilə əmək bazarında tələb olunan peşələr üzrə peşə hazırlığı kurslarının təşkil olunması və onların digər aktiv məşğulluq tədbirlərinə cəlb edilməsi istiqamətində tədbirlər görülməsi.

**8. Məişət zorakılığı sahəsində kadr hazırlığı**

8.1. Məişət zorakılığı sahəsində kadr hazırlığı ixtisaslı kadrların hazırlanması ilə yanaşı, məişət zorakılığı sahəsində təlimlərin keçirilməsini də əhatə edir.

8.2. Məişət zorakılığı sahəsində kadr hazırlığı aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

8.2.1. məişət zorakılığı sahəsində ixtisaslı kadrların hazırlanması;

8.2.2. vəkillər, hakimlər, prokurorlar, polis orqanlarının əməkdaşları üçün məişət zorakılığı ilə mübarizə, həmçinin məişət zorakılığından zərər çəkmiş şəxslərlə davranış sahəsində təlimlərin keçirilməsi;

8.2.3. sosial xidmət, səhiyyə və təhsil müəssisələrinin əməkdaşları üçün təlimlərin keçirilməsi;

8.2.4. məişət zorakılığı mövzusunda media işçiləri üçün təlimlərin keçirilməsi.

**9. Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə sahəsində əməkdaşlıq**

Milli Fəaliyyət Planının həyata keçirilməsi zamanı beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq beynəlxalq təşkilatlarla, eləcə də qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

**10. Milli Fəaliyyət Planının maliyyələşdirilməsi**

Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları (qurumları) üçün nəzərdə tutulmuş vəsait, habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

**11. Milli Fəaliyyət Planının monitorinqi və qiymətləndirilməsi**

11.1. Milli Fəaliyyət Planının uğurla həyata keçirilməsi üçün əlaqələndirici dövlət orqanı işçi qruplar yaradacaqdır. İşçi qruplar prioritet istiqamətlər üzrə tədbirlərin vaxtında və səmərəli icrasına məsul olacaqlar.

11.2. Milli Fəaliyyət Planının monitorinqi və müntəzəm olaraq qiymətləndirilməsi əlaqələndirici dövlət orqanı tərəfindən həyata keçiriləcəkdir. Monitorinq və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritetlə bağlı gözlənilən nəticələrə diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaqdır.

# *Hikmət HACIYEV:* "Diplomatik korpusun nümayəndələri Ermənistanın amansız raket və artilleriya hücumlarının nəticələrinin şahidi oldular"

"Diplomatik korpusun nümayəndələri Ermənistanın amansız raket və artilleriya hücumlarının nəticələrinin şahidi oldular".



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" hesabında yazıb.

Hikmət Hacıyev qeyd edib: "Tərtər rayonunun Şıxarx qəsəbəsi. Qırx dörd günlük müharibə zamanı Ermənistan məcburi köçkünlər üçün tikilmiş bu yaşayış məntəqəsini intensiv şəkildə fərq qoymadan atəşə tutub. Diplomatik korpusun nümayəndələri Ermənistanın amansız raket və artilleriya hücumlarının nəticələrinin şahidi oldular".

Prezidentin köməkçisi həmçinin bildirib ki, oktyabrın 29-da Ermənistan ordusu tərəfindən Tərtərə atılan "Smerç" raketi fərdi evdən götürülərək yerli muzeyə təhvil verilib.

# Azərbaycandakı diplomatik korpusun nümayəndələri Tərtərdə və Ağdamda Ermənistanın müharibə cinayətləri ilə tanış olublar









Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, o cümlədən beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri Tərtərdə Ermənistanın müharibə cinayətləri ilə tanış olublar.



Diplomatlar düşmənin Tərtərə atdığı kasetli raketlərin qalıqlarına baxıblar. Bildirilib ki, düşmən Tərtərə 21 kasetli raket atıb. Onun 14-nün qalıqları Tarix-Diyarşünaslıq Muzeyinin yanında sərgilənir.

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev məlumat verib ki, Ermənistan silahlı qüvvələri mütəmadi olaraq Tərtər rayonunun mərkəzini, qəsəbə və kəndlərini, mülki infrastruktur obyektlərini ağır artilleriya qurğularından atəşə tutub. Tərtər hərbi əməliyyatlar dövründə Ermənistan silahlı qüvvələri tərəfindən ən çox atəşə məruz qalmış Azərbaycan şəhərlərindən biridir. Elə günlər olurdu ki, Tərtər şəhərinə gündəlik 2300-2400-dən çox mərmi düşürdü. Tərtər şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən məqsədyönlü şəkildə bombardman edilirdi. Bunun da nəticəsində mülki insanlar arasında çoxlu sayda ölənlər və yaralananlar olub. Bu məqsədlə Ermənistan silahlı qüvvələri kasetli "Smerç" raketləri də daxil olmaqla bütün növ artilleriyadan istifadə edirdi. Oktyabrın 3-4-də ATƏT xətti ilə Ermənistanın ovaxtkı müdafiə naziri David Tonoyana müraciət olundu ki, Tərtər şəhərinin bombalanmasını dayandırın, orada mülki insanlar yaşayır. Amma o, dayandırmadı, əksinə, daha da intensivləşdirdi. Həmin müharibə cinayətkarı müdafiə naziri vəzifəsindən azad olunsa da, bu kimi cinayət əməllərinə görə cavab verməlidir. Beynəlxalq münasibətlərdə şəhərlərə qarşı bu cür əməllər urbisid, yəni, genosidin şəhərlərə qarşı istifadə edilməsi termini ilə izah olunur. Tərtər şəhəri də bunun bariz nümunəsidir. Ermənistan tərəfindən Tərtərə qarşı genosid siyasəti həyata keçirilib.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov bildirib ki, 44 gün davam edən müharibə zamanı Tərtərə 16 mindən çox mərmi atılıb. Şəhər ermənilər tərəfindən əsasən artilleriya atəşinə tutulub. Şəhərin mərkəzi də daxil olmaqla 44 yaşayış məntəqəsi atəşə məruz qalıb. Qadağan olunmuş 21 "Smerç" raketi atılıb, 4 min obyektə, 2 min fərdi evə, çoxlu sayda məktəb binasına ziyan dəyib.

Diplomatlar Tarix-Diyarşünaslıq Muzeyində oktyabrın 29-da Ermənistan ordusu tərəfindən Tərtərə atılmış və sakinlərdən birinin evinə düşərək yemək masasını deşib keçmiş "Smerç" raketinə baxıblar.

Sonra diplomatlar Şıxarx qəsəbəsində məcburi köçkünlər üçün salınmış yaşayış məhəlləsinə gediblər. Məlumat verilib ki, yaşayış məhəlləsindəki çoxmənzilli binaların hamısı Ermənistan silahlı qüvvələrinin artilleriya atəşinə məruz qalıb. Binalara, klub icma mərkəzinə, həkim məntəqəsinə, musiqi məktəbinə ciddi ziyan dəyib.

Diqqətə çatdırılıb ki, Ermənistan yaşayış məntəqələrini atəşə tutmaqla müharibə cinayəti törədib, mülki insanlara qarşı terror vasitələrindən istifadə edib, beynəlxalq humanitar hüququ kobudcasına pozub.

* * *

Noyabrın 28-də Azərbaycandakı diplomatik korpusun nümayəndələri, beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə səfər ediblər.

Səfərin məqsədi diplomatları Ermənistan silahlı qüvvələrinin Ağdam şəhərində törətdiyi vəhşiliklər, cinayət izləri ilə tanış etmək olub.

Diplomatları Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və digər rəsmi şəxslər müşayiət ediblər.

Diplomatlar Ağdam şəhərində Ermənistanın törətdiyi müharibə cinayətlərinin nəticələri ilə tanış olublar. Onlar burada ermənilərin 27 il ərzində törətdikləri vandalizmi öz gözləri ilə görüblər. Məlumat verilib ki, ermənilər Ağdamda yaşayış məntəqələrini, qəbiristanlıqları, tarixi, mədəni abidələri vəhşicəsinə dağıdıblar.

Hikmət Hacıyev bildirib ki, diplomatik korpusun nümayəndələri ilə yanaşı, bu səfərdə Ağdamın "Qarabağ" futbol klubunun üzvləri, dini konfessiyaların nümayəndələri də iştirak edirlər. "Qarabağ" uzun illərin intizarından sonra artıq doğma Ağdama gəlib.

Prezidentin köməkçisi qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 853 saylı qətnamədə Ağdamın işğalı qəti şəkildə pislənilir və Ermənistan qoşunlarının çıxarılması tələb olunur. O vaxtdan bu, günədək Ermənistan öz qoşunlarını Ağdamdan çıxarmamışdı. Azərbaycanın ən çiçəklənən rayonlarından biri olan Ağdam tamamilə məhv edilib. Artıq dünya ictimaiyyəti ermənilərin törətdikləri bu vəhşilikləri real olaraq görür. Erməni vandalizmi göz qabağındadır. Ağdamlılara qarşı törədilmiş etnik təmizləmə beynəlxalq hüquqa əsasən soyqırımı adlandırılırsa, şəhərə qarşı törədilmiş vəhşilik isə urbisid adlandırıla bilər. Bu, 1963-cü ildən bəri beynəlxalq münasibətlərdə şəhərlərin viran qoyulmasını xarakterizə edən bir termindir. Bu gün Ağdam şəhəri dünyada urbisid, yəni, şəhərə qarşı həyata keçirilən soyqırımı muzeyidir. Bunu beynəlxalq ictimaiyyət görür. Ancaq Azərbaycan öz quruculuq siyasəti ilə Ağdamı yenidən dirçəldəcək, cənnətə çevirəcək. Azərbaycan buradakı bütün abidələri yenidən bərpa edəcək, onlara qayğı göstərəcək. Eyni zamanda, erməni işğalı zamanı dağıdılmış xristian abidələri də bərpa ediləcək. Onlar qorunacaq, bəşər sivilizasiyasının tərkib hissəsi olaraq zəruri diqqət və qayğı göstəriləcək. Bu gün dini konfessiyaların nümayəndələrinin də Ağdamda olması ölkəmizin multikulturalizmə, mədəniyyətlərarası, dinlərarası dialoqa töhfəsinin bariz nümunəsidir. Biz simvolik olaraq indi Ağdam məscidinin qarşısındayıq.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov dövlət başçısının müdrik siyasəti nəticəsində Ağdamın bir güllə belə atmadan, bir şəhid vermədən azad edildiyini bildirib. O, Prezidentimizin rəhbərliyi ilə Ağdamın bərpa ediləcəyini, dünyanın dağıdıcı Ermənistandan fərqli olaraq Azərbaycanın nə qədər qurucu dövlət olduğunu görəcəyini bildirib, bütün ağdamlılar adından Müzəffər Ali Baş Komandana minnətdarlıq edib.

Səfərdə iştirak edən dini konfessiyaların nümayəndələri işğaldan azad edilmiş rayonların sakinlərini və bütün Azərbaycan xalqını təbrik ediblər. Onlar, eyni zamanda, gördükləri dağıntılardan kədərləndiklərini bildiriblər.

Dini konfessiyaların nümayəndələri onlara göstərilən diqqət və qayğıya ögrə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirib, ölkəmizdə mövcud olan multikulturalizmdən məmnunluqlarını ifadə ediblər. Həmçinin ölkəmizin ərazisində mövcud olan bütün məbədləri tarixi sərvətimiz hesab edən dövlət başçısına minnətdarlıq ifadə olunub.

Diplomatların diqqətinə çatdırılıb ki, digər tarixi abidələrimiz kimi, XIX əsrin yadigarı olan Ağdam məscidi də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra talan edilib, yandırılıb, dağıntılara məruz qalıb. Ağdam şəhəri işğaldan azad olunduqdan sonra məsciddə təmizlik işləri aparılıb, 27 ildən sonra azan verilib.

Diplomatlar burada məşhur fotoqraf Reza Deqatinin 1992-ci ildə Xocalı faciəsindən sonra çəkdiyi fotolara da baxıblar.

Sonra Xalq artisti Mənsum İbrahimov Ağdam Dram Teatrının binasının qalıqları önündə "Qarabağ şikəstəsi"ni oxuyub.

Daha sonra Ağdam Şəhidlər xiyabanında Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun məzarı ziyarət olunub. Diqqətə çatdırılıb ki, Şəhidlər xiyabanı da erməni vandalları tərəfindən yerlə yeksan edilib, məzarların yeri belə bilinmir. Burada mindən artıq məzar var idi. Onlar ermənilər tərəfindən tamamilə dağıdılıb.

Diplomatlar Çörək muzeyinə, Qarabağ xanı Pənahəli xanın imarətinə (XVIII əsr), Natəvanın və onun oğlunun türbəsinə (XIX əsr) də baxıblar.

Səfər zamanı "Qarabağ" futbol klubu 27 ildən sonra doğma meydanda - məşhur "İmarət" stadionunda simvolik futbol matçı oynayıb.

***AZƏRTAC***

# DƏMİR YUMRUQ




> "Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur".
>
> **İlham ƏLİYEV**

*Əvvəli 1-ci səh.*

**Bunların beşi də mövcud olmadan, bir əldə qərar tutmadan yumruğun dəmirə çevrilməsi çətindir!**

■ *Daha bir vacib məqam isə yumruğun ustalıqla işlədilməsi, düşmənin kəlləsinə zamanında və dəqiqliklə çırpılmasıdır!*

**Çünki zamanında və yerində tutuzdurulan yumruq birə-yüz effekt verir!**

**Onun "dadını" görənlər ömürləri boyu unutmurlar!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin dəmir yumruğu vədəsində və anında Paşinyanın başını əzərək onu rəzil, miskin günə saldı!**

**Azərbaycan qarşısında diz çökdürdü!**

**Ona-buna yalvarmaqdan, daban yalamaqdan bir şey çıxmadığını görən erməni baş nazir kapitulyasiya sənədinə qol çəkdi!**

■ Bu yumruq Ermənistan ordusunu darmadağın etdi.

Artıq düşmənin öz etirafına görə ordusunun 80 faizi yoxdur!

■ Bu yumruğun qorxusundan keçmiş Ermənistan prezidentləri R.Koçaryan və S.Sarkisyan hərbi əməliyyatlar zamanı qorxularından üzə çıxa bilmədilər!

■ Həmin yumruğun zərbindən Qarabağ müharibəsinin "erməni qəhrəman"larının aldıqları torpaqlar da geri qaytarıldı, orduları isə fərarilər və qorxaqlar yığnağına çevrildi!

■ Bu yumruğun qorxusundan Paşinyan özünün yeddi şərtini unudaraq Azərbaycanın bir şərtinə - rədd olub getmə şərtinə yalvara-yalvara razı oldu!

Çünki bilirdi ki, hərbi əməliyyatlar dayanmasa, dəmir yumruğun sahibi onu ordusuz və Xankəndisiz qoyacaq!

■ Bu yumruğun zərbindən Ermənistan iqtisadiyyatı elə günə düşüb ki, çətin bir daha özünə gələ.

*Çətin ki, Paşinyan və onun dəstəsi bu yumruğu unuda!*

*Çətin ki, dünya erməniliyi bu yumruğu unuda!*

*Çətin ki, Ermənistan ordusu, onun yalançı generalları və saxta "qəhrəmanları" bu yumruğu unuda!*

**Bu dəmir yumruğun dadını görənlər bir də Azərbaycana xain nəzərlərlə baxib, bizdən torpaq və status uma bilməyəcəklər!**

❖ ❖ ❖

Dəmir yumruğun bir hikməti də var:

**Dəmir yumruq təkcə əzmir, qandırmır!**

**Dəmir yumruq həm də tarix yazır, tarix yaradır!**

■ Zəfərlər tarixi!
■ Qələbələr tarixi!
■ Hünər tarixi!
■ Xilaskarlıq tarixi!
■ Ən əsası isə, millətin şərəf tarixini!

**Eşq olsun bu yumruğa!**
**Eşq olsun onun sahibinə!**

❖ ❖ ❖

Yumruq sahibi dəmir yumruğunun gücünü və hikmətini xalqa belə açıqlayıb: *"Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq!"*

❖ ❖ ❖

Qarabağ uğrunda zəfər müharibəsi faktiki olaraq başa çatıb!

İndi Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan ilə şanlı qələbəsini qeyd edir.

Şübhə etmirik ki, müharibələr tarixində kütləvi şücaət və qəhrəmanlığına görə Şuşanın alınma əməliyyatı dünya hərb tarixində özünəxas yer tutacaqdır!

**Yəqin ki, qədim Şuşada Azərbaycan əsgərinə gözəl bir abidə də ucaldılacaq!**

**Eyni zamanda Şuşanın ən hündür qayalarından birində "Dəmir yumruq" abidəsi də qoyulacaq!**

*Hər dəfə Ermənistandan Qarabağa sarı boylanan ermənilər dəmir yumruğu görəndə özlərini yığışdıracaq, ağıllarını başlarına yığacaqlar!*

*Başqa yolları yoxdur!*

Dəmir yumruqlu Azərbaycanla, onun Qalib Sərkərdəsi ilə daim hesablaşmaq lazımdır!

**Qarabağ bizimdir!**
**Qarabağ Azərbaycandır!**

**Bəxtiyar SADIQOV**

# İşğaldan azad olunan Kəlbəcər şəhərində Azərbaycan bayrağı qaldırılıb



**Rəşadətli ordumuzun bölmələri işğaldan azad olunan Kəlbəcər şəhərində Azərbaycan bayrağını qaldırıblar. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.**

## Kəlbəcər rayonunun İstisu qəsəbəsi



**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun İstisu qəsəbəsindən videogörüntünü paylaşıb.**

# İndi Azərbaycan regionun həm də qalib dövlətidir

## İlham Əliyev tarixi Qələbə ilə respublikamızın Cənubi Qafqazdakı liderliyini və beynəlxalq mövqelərini daha da möhkəmləndirdi

*Əvvəli 1-ci səh.*

Xüsusən ən müasir döyüşlərin aparılmasına imkan verən hərbi texnikalar alındı və hərbi təlimlərdə sınaqdan çıxarıldı. Bir sözlə, Ermənistan oz ordusu ətrafında mif yaradanda, danışıqlar prosesini imitasiya edəndə Azərbaycan ordu quruculuğunu zamanın yeni reallıqları əsasında həyata keçirdi və elə bir səviyyəyə çatdırdı ki, işğal olunmuş ərazilərdəki möhkəmləndirilmiş istehkamlar da onun qarşısında aciz qaldı.

Ağdam şəhərinə səfəri zamanı Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan bu barədə deyib: "Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə bizim hərbi xərclərimiz hər il büdcə xərcləri arasında birinci yerdə idi. Mən deyirdim və ya vətəndaşlara izah edirdim ki, bəli, bizim çoxlu başqa məsələlərimiz var, həllini gözləyən problemlər var. Ancaq bizim əsas problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Ona görə bizim xərclərimiz arasında birinci yerdə hərbi xərclər dayanır. Biz lazım olan texnikanı aldıq. Bu texnikanı, müasir silahları Azadlıq meydanında dəfələrlə keçirilmiş paradlarda nümayiş etdirirdik. Biz ordumuzu inkişaf etdirərkən ən qabaqcıl meyilləri nəzərdən keçirmişdik. Biz o silahları alırdıq ki, bu silahlar bizim üstünlüyümüzü təmin etsin və İkinci Qarabağ müharibəsi bunu göstərdi".

Azərbaycan Ordusu bu qələbə ilə sübut etdi ki, Ermənistanın silahlı qüvvələrinin məğlubedilməzliyi ilə bağlı iddiaları mifdən başqa bir şey deyilmiş. Müharibədən sonra hətta güclü ordusu olan dövlətlər Azərbaycanın döyüş meydanında yaratdığı nümunəni, təcrübəsini öyrənməyə çalışırlar.

### Ermənistanın rüsvayçılığa boyun əyməkdən başqa yolu qalmadı

Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlının ardınca Şuşanın alınması Vətən müharibəsində Azərbaycanın hərbi qələbələrinin zirvəsi oldu. Buna qədər təxminən 42 gün müddətində Ermənistanın aidiyyəti orqanları ölkə ictimaiyyətini aldatmaqla məşğul olmuşdular. Azərbaycan Ordusu artıq Şuşaya hücum etdiyi bir vaxtda Ermənistan Müdafiə Nazirliyinin rəsmisi A.Ovannisyan keçirdiyi brifinqlərdə Hadrut ətrafında döyüşlərin getməsi, hətta ermənilərin öz mövqelərini yaxşılaşdırmaları barədə yalanlar danışırdı. Noyabrın 8-də Şuşanın Azərbaycan Ordusu tərəfindən azad edilməsindən sonra da yalan informasiyalar dövriyyəyə buraxılırdı. Noyabrın 10-da gecə saatlarından N.Paşinyanın kapitulyasiya aktını imzalamasından sonra Ermənistan ictimaiyyəti əsl həqiqətlərdən xəbərdar oldu.

Hazırda nəiniki müharibənin davam etdiyi 44 gün ərzində, ümumiyyətlə, ötən 30 ildə yalanlarla idarə olunan bu işğalçı dövlət tarixinin ən acınacaqlı, ən utancverici dövrünü yaşayır. Bütün Ermənistan vətəndaşları işğal siyasətinin qurbanına çevriliblər və üzləşdikləri əzaba və rüsvayçılığa boyun əyməkdən başqa yolları qalmayıb. Xəstə erməni təfəkkürünün, özgə torpaqlarına göz dikməyin sonu başqa cür ola da bilməzdi.

Azərbaycan işğaldakı torpaqlarının bir hissəsini döyüş yolu ilə azad etdi. Kapitulyasiya aktına əsasən Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxarması ilə bağlı öhdəlik götürdü. Ağdam və Kəlbəcərdə artıq Azərbaycan bayrağı dalğalanır. Bu rayonların azad edilməsi Azərbaycan Ordusunun döyüş meydanlarındakı şanlı qələbələrinin nəticəsidir. Bu qələbələrin nəticəsi olaraq Ermənistan rəhbərliyi Prezident İlham Əliyevin şərtlərini yerinə yetirməyə məcbur oldu.

### Fransanın timsalında dünya erməniliyinə vurulan zərbə

İkinci Qarabağ müharibəsində Ermənistana öldürücü zərbə vuran Azərbaycan yeni regional və beynəlxalq reallıqlar yaratdı. Əsas reallıq odur ki, Azərbaycan işğal olunmuş rayonlarını geri qaytarmaqla ərazi bütövlüyünü bərpa etdi. Bununla da ATƏT-in Minsk qrupunun 28 il idi ki, ətrafında danışıqlar apardığı prinsipləri ordumuz güc yolu ilə yerinə yetirdi. Buna qədər beynəlxalq təşkilatlar, həmsədrlər iddia edirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Lakin Azərbaycan sübut etdi ki, düz sözü anlamayanları cəzalandırmaqla problemi həll etmək mümkündür.

Digər bir reallıq ondan ibarətdir ki, Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə əlaqəsi üçtərəfli bəyanatla tam təsbit edildi. Beləliklə, 44 günlük müharibədəki qələbənin nəticəsi olaraq Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirilməsi istiqamətində tarixi addım atıldı. Bununla da Muxtar Respublikanın 30 illik blokadasına son qoyulur, eyni zamanda bütün türk dünyasının yerüstü tranzit-rabitə əlaqəsi bərpa edilir.

Əsas reallıqlardan biri də həm müharibənin gedişində, həm də ondan sonrakı dövrdə Prezident İlham Əliyevin dünya erməniliyinə vurduğu zərbədir. Fransa dövləti ilk gündən neytrallıq prinsipini unudaraq Azərbaycana qarşı təzyiq yolunu tutdu. Prezident Makron gah zəng etdi, gah başqa dövlətlərlə danışıqlar apardı. Fransanın təşəbbüsü ilə BMT-də Ermənistanın maraqlarına xidmət edən qətnamənin qəbuluna cəhd göstərildi. Lakin bütün cəhdlər Fransanın biabırçılığına səbəb oldu. Bu ölkə nə qədər çapalasa da, Ermənistanın kapitulyasiyasına mane ola bilmədi. Bu günlərdə Fransa senatının Dağlıq Qarabağdakı qondarma qurumun tanınması ilə bağlı qətnaməsi isə əslində bu ölkənin siyasi dairələrinin məğlubiyyətinin və Azərbaycanın qələbəsinin göstəricisidir. Bu qələbə ilə Azərbaycan Fransanın timsalında dünya erməniliyini darmadağın etdi.

Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasətin nəticəsi olaraq Azərbaycan regionun lider dövləti idi. Bu qələbə isə respublikamızı Cənubi Qafqazın həm də qalib dövlətinə çevirməklə regiondakı aparıcı rolunu və beynəlxalq mövqelərini daha da möhkəmləndirdi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Prezidentə yazırlar

# "İnanırıq ki, işğaldan azad etdiyiniz tarixi yurd yerlərimiz Sizin sayənizdə inkişaf edəcək, çiçəklənəcək"



Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyənin vətəndaşlarından Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları gəlməkdə davam edir. Onlar Qarabağ müharibəsində qazandığımız tarixi Qələbəni böyük sevinc və qürur hissləri ilə qarşıladıqlarını bildirirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.

Türkiyənin İstanbul şəhərindən **Çakmak Harun** yazır: "Hörmətli cənab Prezident, Sizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm. Mən bir neçə il bundan əvvəl Azərbaycanda inşaat işlərində çalışmışam. Azərbaycanda olduğum müddətdə özümü öz torpağımda hiss edirdim. Bunun bir səbəbi insanların qonaqpərvərliyi, digər səbəbi isə mənim kökümün, əslimin qafqazlı olmasıdır. Mənim ata-babam vaxtilə İrəvandan sürgün edilmişlər. Biz bunu hər zaman böyüklərimizdən eşidirdik. Amma bunun nə demək olduğunu Qarabağdan məcburi köçkün salınmış insanları gördükdə daha yaxşı başa düşdüm. Biz bəlkə də ata yurdumuza heç zaman dönməyəcəyik. Amma Sizin sayənizdə Kəlbəcər, Laçın, Füzuli və digər torpaqlar əsl sahiblərinə qovuşur. Biz də burada məcburi köçkünlər qədər sevinirik. Mən fürsət düşən kimi, azad etdiyiniz torpaqları ziyarət edəcəyəm və həmin yerlərin yenidən inşa edilməsində qarşılıqsız çalışacağam ki, Azərbaycanda gördüyüm hörmətin əvəzini verə bilim. Bir daha Sizi, müzəffər Ordunuzu və bütün Azərbaycan xalqını təbrik edirəm".

İstanbuldan **Kurt İsa Ebik** dövlətimizin başçısına yazır: "Hörmətli cənab Prezident, bu məktubu Sizə yazarkən ürəyim azərbaycanlı qardaşlarımın və hərbçilərin qəlbləri ilə birlikdə döyünür. Ermənilər Qarabağ torpaqlarını 1988-ci ilin əvvəlindən 30 ilə yaxın müddətdə işğal altında saxlasalar da, Azərbaycan xalqı və türk milləti Qarabağın, Şuşanın işğalı ilə heç vaxt barışmadı. Ürəyimizdə, musiqimizdə, şeirlərdə yaşatdıq bu həsrəti. Ermənilər havadarlarının köməyi ilə nə vaxtsa silahsız olan Azərbaycandan alınan torpaqların elə onlarda qalacağına əmin idilər. Ancaq ürəkləri atəş və həsrətlə dolu olan Azərbaycan xalqı bu günləri gözləyirdi və heç vaxt Qarabağın işğalı ilə barışmırdı. "Şuşa, can Şuşa, gələcəyik və yenidən səninlə görüşəcəyik" sözləri heç zaman nəğmələrdən əskik olmurdu. 1988-ci ildə ABŞ-da tələbə olarkən bir qəzet səhifələrindən Qarabağdakı erməni vəhşiliyini əks etdirən materialları topladım. Mətbuat və güc onlarda idi. Fotoşəkillərdən Azərbaycan xalqının bu müharibəyə hazırlıqsız olduğu başa düşülürdü. Həmin qəzet materiallarını hələ də saxlayıram. Lakin zaman dəyişdi. Sizin rəhbərliyiniz altında Azərbaycan qüdrətli dövlətə çevrildi. Şuşanın və bütün Qarabağın azad edilməsi Azərbaycanın gələcək inkişafı üçün çox vacib məsələdir. Hər Azərbaycan şəhərinin, kəndinin azadlığı barədə xəbərləri izləmək mənə qürur verirdi. Zəfər Azərbaycanın və Sizindir. Ruhumuz, ürəyimiz can Azərbaycanladır! Qarabağ Azərbaycandır!"

Bakı şəhər sakini **Məmmədağa Əjdərov:** "Müzəffər Ali Baş Komandan, sentyabrın 27-dən başlayaraq müqəddəs Azərbaycanımızın yeni şərəfli tarixi yazılmağa başlanılıb. Otuz ilə yaxın mənfur düşmən tapdağında olan torpaqlarımız Sizin komandanlığınız altında rəşadətli Ordumuz tərəfindən işğaldan azad olunmuşdur. Qarabağımızın tacı olan Şuşamıza və işğaldan azad olunan digər şəhərlərimizə müqəddəs üçrəngli bayrağımız sancılmışdır. Azərbaycan xalqının qəlbi hədsiz sevinc və qürurla dolmuşdur. Ulu Öndərimiz Heydər Əliyevin və Sizin dediyiniz kimi, dövlətimizin qüdrəti və təhlükəsizliyi güclü iqtisadiyyatımız və güclü Ordumuzla şərtləndirilir. Sizin söylədiyiniz kimi, biz işğaldan azad olunmuş yaşayış məntəqələrimizi bərpa edəcəyik, yeni-yeni yollar çəkəcəyik, yeni qəsəbələr, şəhərlər salacağıq. Məcburi köçkünlərimiz sevinclə öz doğma ata-baba yurdlarına qayıdacaq. Qarabağımızın çiçəklənməsi mənfur düşmənlərimizə göz dağı olacaqdır. Bu tədbirləri həyata keçirmək üçün dövlətimizin kifayət qədər maliyyə vəsaiti vardır. Buna baxmayaraq, biz sadə vətəndaşlar da bu müqəddəs işdə öz kiçik töhfəmizi vermək istəyirik. Mən təklif edirəm ki, könüllülük əsasında "Qarabağ Azərbaycandır!" adlı bir fond yaradılsın. Belə bir fond yaradılarsa, şəxsən mən əmək fəaliyyətimin sonuna kimi, əməkhaqqımın 5 faizini həmin fonda köçürməyi könüllü olaraq öhdəmə götürürəm. Yaşasın Ali Baş Komandan və rəşadətli Ordumuz! Yaşasın Qarabağımız! Qarabağ Azərbaycandır!"

Daşkəsən rayonundan **Elşən Abdullayev** yazır: "Hörmətli cənab Prezident, torpaqlarımızın düşməndən geri alınması münasibətilə Sizi və Azərbaycan xalqını təbrik edirəm. Sizə uzun ömür, cansağlığı arzulayıram. Cənab Prezident, çox sağ olun ki, Siz ata vəsiyyətini layiqincə yerinə yetirdiniz. Allah Ulu Öndərimizə və bütün şəhidlərimizə rəhmət eləsin. Mən fəxr edirəm ki, təməli Ulu Öndərimiz tərəfindən qoyulan və Sizin rəhbərliyinizlə xalqa xidmət edən Yeni Azərbaycan Partiyasının üzvüyəm. Yaşasın Azərbaycan! Yaşasın Ali Baş Komandan! Yaşasın müzəffər Azərbaycan Ordusu!"

Füzuli sakini **Ağacan Teymurov:** "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, Siz Prezident seçilən ilk gündən Sizin fikriniz Azərbaycan xalqının xoşbəxtliyi, onun xoş gələcəyi və ən əsası da torpaqlarımızın erməni tapdağından azad olunması olmuşdur. Çox şükürlər olsun ki, Siz dediklərinizin hamısına nail oldunuz. Bütün bunlara görə Sizə öz dərin təşəkkür və minnətdarlığımızı bildiririk. Cənab Prezident, Vətən müharibəsi başlayandan əvvəl mənim iki övladım vətənimizin müdafiəsi üçün hərbi xidmətə getdilər və qəhrəmancasına döyüşdülər. Döyüş gedən müddətdə erməni qəsbkarlarının atdığı mərmi nəticəsində evimiz darmadağın edildi. Ancaq bizdə heç bir ruh düşkünlüyü olmadı. Bizə Sizin, Ordumuzun sağlamlığı və vətənimizin bütövlüyü lazımdır. Xalqımız çətin günlərdə bizləri tək qoymadı. Xeyriyyəçilərimiz bizə dəstək oldular. Uca Tanrı Sizə və Ordumuza yar olsun!"

Xocalı sakini **Allahverən Kərimovun** məktubunda deyilir: "Hörmətli cənab Prezident, əvvələ Sizi və müzəffər Ordumuzu böyük qələbə, yəni işğal altında olan torpaqlarımızın azad olunması münasibətilə təbrik edirəm. Mən bu təbrik məktubunu sevinc hissi ilə Sizə ünvanlayıram. Sizin uzaqgörən siyasətinizi hər zaman dəstəkləmişik və indi Sizə inamımız daha da yüksəkdir. Əziz Prezidentimiz, Siz bizi 30 ilə yaxın işğal altında olan dədə-baba torpaqlarımıza geri qaytarırsınız, uşaqlığımızı bizə qaytardınız. Həqiqətən nə deyə bilərəm, sevincimin həddi-hüdudu yoxdur. Var olun, cənab Prezident. Hər zaman Sizin yanınızdayıq. Biz inanırıq ki, tezliklə öz doğma torpaqlarımıza qayıdacağıq. Sağ olun, var olun əziz Prezidentimiz. Torpaqlarımız uğrunda şəhid olan qardaşlarımızın ruhu qarşısında baş əyirik, qazilərimizə Allahdan şəfa diləyirik. Allah Sizi qorusun!"

Ağdam sakini **Cabir Məmmədov:** "Hörmətli Prezident, ölkəmizin ən ağır, ən müşkül problemləri Sizin liderliyinizlə bir-bir həll olunur və bütün bunlar bir Azərbaycan vətəndaşı olaraq hər birimizi sevindirir. İllərlə hər birimizin ürək yarasına çevrilmiş Qarabağ, şükürlər olsun ki, artıq böyük ölçüdə azadlığına qovuşub və tamamilə azad olacaq. Bütün bunlar Sizin komandanlığınız altında Ordumuzun və xalqımızın, Sizin ifadə ilə desək, bir yumruq kimi birliyinin nəticəsidir. Biz ölkəmizə kənar siyasi və digər təzyiqlərin olduğunu da bilirik. İnşallah, tezliklə o çətinliklərin öhdəsindən gələcəyinizə inanırıq. Azərbaycanımız daha güclü, daha firavan, daha möhtəşəm bir ölkəyə çevriləcək. Hörmətli cənab Prezident, vətənimizin hər qarışı hər birimiz üçün əzizdir, doğmadır. Hər birimiz bu vətənin əsgərləriyik. "Ölsək şəhid, qalsaq qazi" amalı ilə yaşayırıq. Hər birimizin doğulduğu bölgə ona bir az daha yaxındır, daha doğmadır. Mən də Ağdamda doğulmuşam. İllərlə "məcburi köçkün" adından narahat olmuşam. Şükürlər olsun ki, artıq bu ad üzərimizdən götürüldü. Sizin ən qısa zamanda Ağdama səfəriniz bizi daha da sevindirdi. Allah yar və yardımçınız olsun! Amin! Cənab Prezident, izninizlə belə bir təklifim var ki, Şuşa şəhəri 2021-ci il türk dünyasının mədəniyyət paytaxtı elan edilsin. İl ərzində böyük mədəni tədbirlər keçirilsin. Məncə, bu, Qarabağın, bir mədəniyyət mərkəzi olaraq, bütövlükdə dünyada təbliği üçün bir addım olar. Təşəkkür edirəm".

Qazaxdan **Zakir Yunisov:** "Müzəffər Ali Baş Komandan İlham Əliyev, bütün dünyaya özünü, millətini tanıdan, düşmənlərin öhdəsindən layiqincə gələn qəhrəman Prezidentimiz, Sizi ailə üzvlərim və bütün Qazax əhalisi adından səmimi-qəlbdən təbrik edir, Sizə uzun ömür və cansağlığı, qələbənin daim Sizinlə bir olmasını arzu edirəm. Cənab Prezident, Azərbaycan xalqı Sizinlə fəxr edir. Sizi ömürlük Prezident kimi görmək arzusundadır. Sizi istəməyən azərbaycanlı ola bilməz. Qarabağ bizim dərd yerimiz idi. O problemi də Siz həll etdiniz. Vaxtilə düşmənin beş il ərzində zəbt etdiyi torpaqları Siz 44 gündə geri aldınız. Artıq heç bir çətinliyimiz, problemimiz qalmadı. Eşq olsun Sizə! Eşq olsun Azərbaycan Ordusuna! Eşq olsun qardaş Türkiyənin Prezidenti Ərdoğana! Bizə dayaq olan hər kəsə təşəkkür edir, onlarla qürur duyuruq. Yer üzərində Sizin kimi Prezident olmayıb, olmayacaq da. Siz ömürlük tarixə düşdünüz. Ulu Öndərin ruhu şad oldu. Cənab Prezident, hər kəsin qeydinə qaldığınız üçün ölkənin başında hər zaman Siz duracaqsınız. Qələbə hər zaman Sizinlə olsun! Cənab İlham Əliyev, Sizin bütün çıxışlarınızı böyük həvəslə izləyirik. Bütün danışıqlarınız ömürlük yaddaşlara həkk olunub. Millətimiz bir olduğu zaman Vətənimiz basılmaz. Millətimiz daim dəmir yumruq kimi bir olmalıdır. Müzəffər Ali Baş Komandan, mən Sizin yolunuzda ölümə belə getməyə hazıram. Eşq olsun Prezidentimizə!"

Sabirabaddan **Nailə Zeynalova:** "Cənab Prezident, 30 ildir həsrətində olduğumuz torpaqlarımızı işğaldan azad etdiyiniz üçün özüm və ailəm adından Sizə təşəkkür edirəm. Sizin rəhbərliyiniz və şanlı Ordumuzun qəhrəmanlığı nəticəsində bütün yurd yerlərimiz qısa bir müddət ərzində azadlığa qovuşdu. Təşəkkürlər, cənab Prezident. Qarabağ Azərbaycandır!"

Mingəçevir şəhərindən **Çinarə Qarayeva:** "Möhtərəm Prezident, Sizi Qarabağda qazandığımız Qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sizin uzaqgörən siyasətiniz nəticəsində rəşadətli Ordumuz erməni işğalçılarını torpaqlarımızdan qovdular. Sizi və xilaskar Şanlı Ordumuzu 30 ildir ki, işğal altında olan ərazilərimizin azad olunması münasibətilə alqışlayıram. Allah Sizə uzun ömür, cansağlığı versin, yaralı əsgərlərimizə tez şəfa versin. Allah şəhidlərimizə rəhmət eləsin. Eşq olsun Sizə və Şanlı Ordumuza!"

Füzuli sakini **Nurlan Əlizadə:** "Cənab Prezident, Sizin Ağdam şəhərində olan çıxışınızı izlədim və çox qürurlandım. Sizinlə fəxr edirəm. Sizin sayənizdə biz dünyanın ən güclü ölkələrindən biri olacağıq. Sizə olan rəğbətimiz və inamımız sonsuzdur. Yaşasın Azərbaycan!"

Laçın sakini **Əmirxan Zeynalov:** "Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan, Siz fəaliyyətə başladığınız ilk gündən bir amalınız olub - müstəqilliyimizi qorumaq, güclü Azərbaycan dövləti yaratmaq, hər bir Azərbaycan vətəndaşının maddi, mənəvi rifahının yaxşılaşdırılması, ən şərəfli vəzifə olan əzəli və əbədi düşmənimiz - faşist ermənilərin işğal etdikləri torpaqlarımızı azad etmək. Cənab Prezident, Siz bu amalların hamısını bizlərə bəxş etdiniz. Buna görə Sizə minnətdaram. Bir laçınlı olaraq həmişə Sizə inanmışam. Arzu edirəm, Laçın rayonunun ən uca zirvəsi olan Qırxqız zirvəsində üçrəngli bayrağımızı dalğalandırasınız. Siz həmin zirvədən Dərələyəzi, Göyçə mahalını və bütün Qarabağı seyr edəsiniz".

Xocalı sakini **Səxavət Hüseynov:** "Müzəffər Ali Baş Komandan, İlham Əliyev, qayıtması bizlər üçün xəyal olan və bu gün həmin arzularımızı gerçəkləşdirərək 30 il düşmən tapdağında qalan torpaqlarımızın 44 gün ərzində azad edilməsində göstərdiyiniz dəmir iradəyə görə Sizə və yaratdığınız qüdrətli Azərbaycan Ordusuna dərin minnətdarlığımı bildirirəm. Bir Azərbaycan gənci kimi inanıram ki, işğaldan azad etdiyiniz tarixi yurd yerlərimiz Sizin quruculuğunuz sayəsində gündən-günə inkişaf edəcək, çiçəklənəcəkdir".

Daşkəsəndən **Elnur Paşayev:** "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, Qələbəmiz mübarək olsun! Torpaqlarımızı şəhidlərimizin qanı-canı hesabına aldıq. Allah onlara rəhmət eləsin, məkanları cənnət olsun. Hamımız bir ömür boyu şəhidlərimizə borcluyuq. Cənab Prezident, biz hər zaman Sizin yanınızdayıq, siyasətinizi dəstəkləyirik. Çox sağ olun, Müzəffər Ali Baş Komandanımız. Bu Qələbə sevincini bizə yaşatdığınıza görə təşəkkür edirik. Hamımız Sizin əsgərinizik".

Mingəçevir şəhər sakini **Leyla Əmiraslanova:** "Hörmətli cənab Prezident, Sizin əməyiniz, qətiyyətiniz və Ordumuzun qəhrəmanlığı nəticəsində Azərbaycan haqlı mübarizəsində qalib gəldi. Sizin müdrik siyasətiniz, Ordumuzun peşəkar hazırlığı, müasir silah və sursatlarla təchizatı bizi böyük Zəfərə çatdırdı, 30 ildir hər birimizin narahatlığına səbəb olan münaqişə sülh və qələbə ilə nəticələndi. Tariximizə qızıl hərflərlə yazılan 44 gün bizə çox şey öyrətdi. Hər zaman eşitdiyimiz o müqəddəs torpaqları görmək bizə də nəsib olacağı üçün sonsuz sevinc hissi keçirirəm. Hər birimizin dillər əzbəri olan "Qarabağ Azərbaycandır!" şüarı qəlbimizə həkk olunub və Qarabağ indi bizə, doğma sakinlərinə, biz isə əzəli və əbədi torpaqlarımıza qovuşduq. Sizin və Müzəffər Ordumuzun yazdığı yeni tarixi gələcək nəsillər qürurla oxuyacaq. İşğaldan azad edilən ərazilərimizdə Azərbaycan bayrağının dalğalanması bizi sevindirir. Bunun üçün Sizə minnətdarıq. Möhtərəm Prezidentimiz, Allah Sizə uzun və sağlam ömür nəsib etsin. Biz hər zaman Sizin yanınızda olacağımıza, Sizinlə birlikdə addımlayacağımıza söz veririk".

Zərdabdan **Cavanşir Xəlilov:** "Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, uzun illər Azərbaycana rəhbərlik etmiş Ulu Öndər Heydər Əliyev respublikamızı 1990-cı illərin ağır, dağıdıcı böhranından çıxararaq onu dünya səviyyəsinə qaldırdı. Haqlı olaraq xalqımız Ümummilli Lideri Yeni Azərbaycan dövlətinin yaradıcısı hesab edir. Həqiqətən də Azərbaycanımız Heydər Əliyevin şah əsəridir. Tarixin gedişi Azərbaycanın Qarabağ dərdinin Ulu Öndərin dövründə həllinə imkan verməsə də, O, bu problemin həllinə ürəkdən inanır və bunu öz çıxışlarında dəfələrlə qeyd edirdi. Bu gün Ulu Öndərin özü qədər inandığı şəxsiyyət - bu tarixi missiyanı ləyaqətlə yerinə yetirdiniz. Siz 30 ilə yaxın düşmən tapdağı altında olan Qarabağı Azərbaycanımıza qaytardınız. Əgər Ulu Öndər Azərbaycanın yaradıcısıdırsa, Siz bütöv Azərbaycanın qurucususunuz. Bəşəriyyət durduqca Azərbaycanımızın bütövlüyünü təsdiq edən sənəddə Sizin imzanız yaşayacaq və gələcək tarixlərdə yaşayanlar da Sizin adınızı həmişə əziz tutacaqlar. Böyük filosof şair Nəsimi demişkən, dünyada insanlar kamil və cahil insanlara bölünürlər. Azərbaycanın ərazi bütövlüyünü bərpa edən, Sizin və bütün türk dünyasının kamilliyi və bu kamillikdə formalaşan Azərbaycan Ordusunun Vətənə, xalqa məhəbbətlə yoğurulmuş qəhrəmanlığı oldu. Qazanılmış böyük Qələbə münasibətilə Sizi təbrik edir, Azərbaycanımızın firavanlığı və bütövlüyü yolunda Sizə bir daha cansağlığı, uzun ömür və mətin iradə arzulayıram. Qarabağ Azərbaycandır!"

# Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan cənab İlham Heydər oğlu Əliyevə

Hörmətli cənab Prezident.

Azərbaycan-Bolqarıstan ictimai birliyinin adından Sizi Azərbaycanın Böyük Qələbəsi münasibətilə təbrik edirik. Qarabağ Azərbaycandır!

Cənab Prezident, Siz Azərbaycan xalqının Ümummilli Lideri, dahi Heydər Əliyevin işini və siyasətini ləyaqətlə davam etdirirsiniz. Sizin adınız tarixə, diplomatiya tarixinə, beynəlxalq münasibətlər tarixinə və hərbi iş tarixinə düşüb. Sizin siyasətiniz sayəsində Azərbaycanda - dünyanın bu gözəl guşəsində müxtəlif millətlərdən olan insanlar, o cümlədən bolqarlar yaşayırlar. Bütün bunlar ona görə mümkündür ki, Azərbaycanda milli azlıqlara münasibətdə tolerantlıq və multikulturalizm siyasəti həyata keçirilir. Azərbaycan xalqının çoxillik tarixi mədəniyyətlər arasında dözümlülük və dialoq ruhunun, həmçinin ölkənizdə yaşayan bu qədər müxtəlif insanlar arasında, onların etnik, mədəni, dil və din mənsubiyyətindən asılı olmayaraq, qarşılıqlı hörmət, anlaşma və əməkdaşlıq ruhunun yaradılması və bərqərar olması üçün mühüm amildir.

2005-ci ildə Azərbaycanda "Azərbaycan-Bolqarıstan dostluğunun inkişafına kömək" İctimai Birliyi yaradılıb, bolqar dilində "Akord" adlı beynəlxalq jurnal nəşr edilir. Bu İctimai Birliyin sədri Azərbaycanın qədim tarixə malik Gəncə şəhərində doğulub boya-başa çatmış etnik bolqar qadındır.

On beş il ərzində bu cəmiyyətin fəaliyyətinin və jurnalın nəşrinin əsas missiyası auditoriyanı Azərbaycan ilə Bolqarıstanın qarşılıqlı münasibətlərində baş verən ən mühüm və aktual hadisələr barədə məlumatlandırmaqdır.

Ermənistan tərəfinin törətdiyi təcavüz və terrorizm ilə əlaqədar hərbi əməliyyatlar dövründə sosial şəbəkədə informasiya meydanını ələ keçirmək məqsədilə cəmiyyətin "Instagram" sosial şəbəkəsində "@azerbaijan_bulgaria" rəsmi səhifəsi yaradılıb. Bu səhifədə yerləşdirilən postlarda Ermənistan tərəfindən Azərbaycanın dinc əhalisinə qarşı törədilən təcavüzün, terrorizmin və vandalizmin nəticələri barədə məlumatlar əks olunur.

İctimai Birlik Bolqarıstanın Prezidentinə, Baş nazirinə, parlamentinə, Plovdiv və Varna şəhərlərinin rəsmi şəxslərinə, kütləvi informasiya vasitələrinə müraciət göndərib. Həmin müraciətdə Azərbaycanda baş verən real hadisələr, Azərbaycanın dinc əhalisinə qarşı erməni təcavüzü və terrorizmi barədə məlumat verilib. Müraciətdə deyilirdi ki, Azərbaycanda dinc şəraitdə yaşayan bolqarlar Ermənistanın təxribatçı hərəkətlərini və siyasətini qətiyyətlə pisləyirlər.

Noyabrın 10-da Bolqarıstan və Azərbaycan KİV nümayəndələri ilə uğurla təşkil edilmiş "Azərbaycan-Bolqarıstan" telekörpüsü xoş təsadüfdən Azərbaycanın Böyük Qələbə Günü ilə eyni vaxta düşdü.

Çoxmillətli Azərbaycan xalqı adından Sizə - Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə, birinci xanım və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya, Sizin bütün ailənizə və bütün Azərbaycan xalqına sülh, firavanlıq, xoşbəxtlik, cansağlığı və Azərbaycanın inkişafı naminə uğurlu fəaliyyət arzu edirik.

*Hörmətlə,*

***Mariya Pavlovna HÜSEYNOVA-ATANASOVA,***
***"Azərbaycan-Bolqarıstan Dostluğunun İnkişafına Kömək" İctimai Birliyinin sədri, bolqar dilində "Akord" jurnalının baş redaktoru***

❖ ❖ ❖

Hörmətli Prezident və cənab Ali Baş Komandan.

Moldova Azərbaycanlıları Konqresi Azərbaycan xalqını və onun lideri kimi şəxsən Sizi Ermənistanla müharibədə parlaq Qələbə və Qarabağın Azərbaycanın tərkibinə qaytarılması münasibətilə təbrik edir.

2020-ci il noyabrın 8-i Qarabağ münaqişəsinin tarixində dönüş anı oldu. Şuşada baş verən hadisələr sübut etdi ki, regionda qüvvələrin ədalətli tarazlığının bərpası və Azərbaycan Ordusunun aşkar üstünlüyünün təsdiqlənməsi zaman məsələsidir. Həqiqətən də həmin zaman yetişdi.

Azərbaycan işğalçıların anlaya biləcəyi dildə - güclü müqavimət və qəhrəmanlıqlar dilində danışmağa başladı. Sizin rəhbərliyinizlə hərbi əməliyyatların aparılması üçün seçilmiş düzgün taktika və Azərbaycan döyüşçülərinin Vətənin mənafeyinə fədakarcasına xidmət etmələri sentyabrın 27-dən bəri hamımızın gözlədiyimiz uğurla nəticələndi.

Erməni ordusunun ardıcıl məğlubiyyətləri kulminasiya nöqtəsinə çatdı - işğalçı kapitulyasiyaya məcbur oldu.

Biz tarixin ölkəmiz üçün bu çətin dövründə Sizin fəaliyyətinizə heyran olduğumuzu bildiririk. Biz həm də ölkəmiz uğrunda döyüşlərdə həlak olmuş qəhrəmanlara görə Sizin və bütün Azərbaycanın hədsiz kədərinə şərikik.

Öz doğmalarının və yaxınlarının sağlamlığı naminə canlarından keçən igid döyüşçülər yetişdirmiş ailələr Azərbaycanın tarixində əbədi qalacaq. Şəhidlərin xatirəsinə ən yaxşı mükafat Qələbə oldu.

Şuşa şəhərinin azad olunması Ordumuzun hərbi və psixoloji üstünlüyünü təmin etdi. Ermənilər məğlub edildi və biabırçı şəkildə uduzaraq Azərbaycanın tarixi torpaqlarından qovuldu. Qarabağın bütün yaşayış məntəqələri bizimdir!

Biz Azərbaycanın sülhü təmin edəcəyi günü səbirsizliklə gözləyirdik. Buna görə də qəti qələbə və vahid Azərbaycanın sabit gələcəyi barədə xoş xəbəri Sizin dilinizdən böyük sevinclə eşitdik. Sizi və bütün Azərbaycanı Qələbə Günü münasibətilə təbrik edirik.

*Hörmətlə,*
*Moldova Azərbaycanlıları Konqresinin Şurası adından*

***Elçin BAYRAMOV,***
***sədr***
***Ramil ADIGÖZƏLOV,***
***Marif BERQAN,***
***Zamin BAYRAMOV,***
***Zamir QUBADOV,***
***Aynurə ƏBDÜLRƏHİMOVA,***
***Mahizər MƏMMƏDOVA,***
***Ramiz ƏNSƏROV***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Azərbaycan müsəlmanlarının coğrafi cəhətdən dövlətinizin də daxil olduğu Avropanın müsəlman icmasının bir hissəsi olduğunu nəzərə alaraq, Avropadakı bütün müsəlmanların maraqlarını təmsil edən ümumavropa platforması olan Avropa Müsəlman Forumu adından Sizə dərin hörmətimizi bildiririk. Peyğəmbərimizin mübarək Rəbiul-Əvvəl ayında, eləcə də İslam əleyhinə hörmətsizliklərin edildiyi, Azərbaycan xalqının Qarabağ xanlığının ərazisi olmuş qanuni və tarixi torpaqları ilə bağlı legitim hüquqlarına qarşı qərəzli təbliğatların aparıldığı bir dövrdə Sizin rəhbərliyinizlə tarixi zəfər qazanan Azərbaycan xalqını və qardaş Azərbaycanı möhtəşəm Qələbə münasibətilə təbrik edirik.

Bu gün bütün İslam ümməti, yəni 1,7 milyard nəfər olan müsəlman qardaşlarımız ordunuzun və xalqınızın qazandığı bu Qələbədən qürur duyur. Ən müasir silahlarla təmin edilmiş ordunuzun peşəkarlığı, düşmənə qarşı nizamlı şəkildə göstərdiyi şücaət, eləcə də ölkənizdə yaşayan bütün xalqların və dinlərin nümayəndələrinin birliyi və hərtərəfli düşünülmüş strategiya sayəsində qazandığınız bu müvəffəqiyyət ən böyük alqışa və ən dərin hörmətə layiqdir.

Bildiyiniz kimi, təşkilatımız Qarabağ münaqişəsinin ədalətli həlli, işğal altında olmuş torpaqların azad edilməsi, eyni zamanda, acınacaqlı və təhqir edilmiş vəziyyətdə olan çoxsaylı abidələrin, müsəlmanlara məxsus dini və tarixi məkanların bərpası, məscidlərdə donuz və mal-qaranın saxlanılması, hamam kimi istifadə olunması ilə bağlı məsələləri dəfələrlə gündəmə gətirib. Biz qardaş Azərbaycan xalqına və onun haqlı mövqeyinə dəstək olaraq ümumavropa konfransının keçirilməsini bir neçə dəfə təklif etmişik. İndi Azərbaycan xalqının bir çox amillərə baxmayaraq, öz torpaqlarını özləri azad etməsi, şübhəsiz ki, baş vermiş ən yaxşı hadisədir və biz buna görə Uca Yaradana minnətdarıq və Peyğəmbərimizə (s.ə.v.) salavat göndəririk.

Təşkilatımızın təşəbbüslərini davam etdirərək Zati-alinizdən xahiş edirik ki, torpaqlarınızın 30 illik işğal nəticəsində nə qədər acınacaqlı bir vəziyyətə düşdüyünü və işğal altındakı ərazilərdə, ümumiyyətlə, dinimizə qarşı hansı vandalizm və təhqiramiz əməllərin həyata keçirildiyini öz gözlərimizlə görmək, eləcə də Azərbaycan xalqına mənəvi dəstək vermək, qardaş həmrəyliyimizi nümayiş etdirmək, həmçinin indi daha az əhəmiyyət kəsb etməyən məsələ, yəni Qarabağ münaqişəsi, onun tarixi və faciəvi nəticələri, uğurla başa çatması ilə bağlı real vəziyyət və münaqişəyə dair həqiqətlər barədə dünya ictimaiyyətini məlumatlandırmaq məqsədilə Avropa Müsəlman Forumu liderlərindən ibarət nümayəndə heyətinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfərinə icazə verəsiniz.

Nümayəndə heyətimiz üçün əhəmiyyət kəsb edən əsas məsələ Şuşa və Ağdama səfər etmək, eləcə də Xocalı soyqırımının baş verdiyi Xocalı rayonunda namaz qılmaqdır. Biz inanırıq ki, "Qafqazın Srebrenitsası" kimi dəhşətli faciə olan Xocalı soyqırımı haqqında həqiqətləri gələcək nəsillərə çatdırmaq üçün müvafiq abidə ucaldılmalıdır.

Uca Allaha dua edirik ki, qardaş Azərbaycanın müqəddəs torpaqlarında bundan sonra heç bir hərbi əməliyyatlar aparılmasın və qardaş ölkəmiz Azərbaycan təkcə Avropanın bir çox ölkələri üçün deyil, bütün Avrasiya regionu ölkələri üçün nümunə olduğu kimi, Qarabağ da mərdliyin, firavanlığın və dostluğun rəmzinə çevrilsin.

Bu xoş fürsətdən istifadə edərək, Zati-alinizi, xalqınızı və gözəl ölkənizin bütün milli və dini icmalarının nümayəndələrini qürur duyduğumuz bu ümumi Qələbə münasibətilə bir daha təbrik edirik.

*Hörmətlə,*

***Əbdül-Vahid NİYAZOV,***
***Avropa Müsəlman Forumunun prezidenti***

*Brüssel, Belçika*

***Migel Anxel RUİZ,***
***Barselona Məscidi Mədəni Fondunun prezidenti, Avropa Müsəlman Forumunun İdarə Heyətinin üzvü, Avropa Müsəlman Forumu Fondunun vitse-prezidenti***

*Barselona, İspaniya Krallığı*

***İqbal SAKRANAY,***
***Böyük Britaniya Müsəlman Şurasının Baş katibi, Avropa Müsəlman Forumunun İdarə Heyətinin üzvü***

*London, Böyük Britaniya*

***Romas JAKUBAUSKAS,***
***Litva Respublikasının müftisi, Avropa Müsəlman Forumunun İdarə Heyətinin üzvü***

*Vilnüs, Litva*

***Dəmir MUXETDİNOV,***
***Rusiya Federasiyası Müsəlmanlarının Ruhani İdarəsi sədrinin birinci müavini, Avropa Müsəlman Forumunun İdarə Heyətinin üzvü***

*Sankt-Peterburq / Moskva,*
*Rusiya Federasiyası*

# YAP-ın Siyasət Akademiyasının Ermənistan-Azərbaycan münaqişəsinin hərbi həll yolu və yeni sülh prosesi mövzusunda kursu keçirilib



Noyabrın 28-də Yeni Azərbaycan Partiyasının (YAP) Siyasət Akademiyasının "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: hərbi həll yolu və yeni sülh prosesi" mövzusunda videokonfrans formatında kursu keçirilib.

YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kursun rəhbəri, Milli Məclisin deputatı Elman Nəsirov mövzu barədə məlumat verib, ölkəmizin 44 günlük Vətən müharibəsi dövründə qazandığı parlaq Qələbədən bəhs edib.

Sonra YAP İcra Katibliyinin Təşkilat şöbəsinin müdiri, partiyanın Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov mövzu haqqında məruzə ilə çıxış edib. A.Hüseynov qeyd edib ki, Azərbaycan 30 il ərzində münaqişənin sülh yolu ilə həllinə ümid edirdi. Bu baxımdan, konstruktivlik nümayiş etdirərək sülh prosesinə sadiqlik nümayiş etdirirdi. Amma işğalçı Ermənistan müxtəlif bəhanələrlə status-kvonu qoruyub saxlamağa çalışırdı. Eyni zamanda, münaqişənin nizamlanması prosesində vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistanın işğalçılıq siyasətinə son qoyulması üçün ciddi addımlar atmayıb, təcavüzkara qarşı heç bir təzyiq göstərməyiblər.

A.Hüseynov bildirib ki, belə olan halda sentyabrın 27-də Azərbaycan Ordusu Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq əks-hücum əməliyyatına başlayıb. Qırx dörd gün davam edən Vətən müharibəsində Azərbaycan xalqı böyük qələbə qazanıb: "Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu, qəhrəman əsgər və zabitlərimiz 44 gün ərzində böyük şücaət göstərərək bu qələbəni təmin ediblər. Döyüş meydanında qazanılan uğurlarımız Nikol Paşinyanı məcbur edib ki, noyabrın 10-da Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında bəyanatı imzalasın. Bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bütövlükdə, bu Vətən müharibəsi Azərbaycanın gücünü, qüdrətini bütün dünyaya göstərib. Bu dövrdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev həm hərb meydanında, həm diplomatik müstəvidə, həm də informasiya müharibəsində böyük üstünlük nümayiş etdirib. Qazandığımız qələbədə bu amil müstəsna rol oynayır. Eyni zamanda, qələbəmiz "Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli yoxdur" deyən beynəlxalq dairələrə bir cavab olub. Artıq münaqişənin hərbi mərhələsi başa çatıb. Noyabrın 10-da imzalanmış birgə bəyanata əsasən razılaşmaların həyata keçirilməsi davam edir".

Daha sonra Aydın Hüseynov kurs iştirakçılarının suallarını cavablandırıb.

# Dövlət İdarəçilik Akademiyasında qürurverici görüş: Cəbhədən gələn var

Qırx dörd günlük Vətən müharibəsinin od-alovundan keçərək qələbə bayrağımızı zirvələrə ucaltmış mübariz əsgərlərimiz arasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) müəllim, tələbə və məzunları da var.



Bu şərəfli tarixi yazan insanlar tutduğu mövqedən, peşəsindən asılı olmayaraq Müzəffər Ali Baş Komandanın, Vətənin çağırışına səs verdilər. Müəllimlər, tələbələr, məzunlar "Vətən çağırır", "Vətən sağ olsun!" şüarı ilə qələmlərini, kitablarını silaha dəyişdilər. Doğma Vətəni işğaldan azad etdilər. Tərtər, Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı, Zəngilan rayonlarında və Şuşa şəhərində tarix yazdılar. İndi onlar öz doğmalarının yanına, çalışdıqları kollektivin arasına qəhrəman kimi, qalib əsgər kimi qayıdırlar.

Bu barədə AZƏRTAC-a DİA-dan məlumat verilib. Bildirilib ki, onların Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqları, ordu ilə xalqın sarsılmaz mənəvi birliyi, döyüşlərdə yeni tarix yazan əsgər və zabitlərimizin fədakarlıqları barədə etdikləri söhbətlər qürur hissi doğurur. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti Radif Mustafayev, magistr Kənan Vəliyev, Zaur Məmmədov, bakalavr məzunları Elvin Eminsoy, Ülfət Hacıyev və bir çox DİA ailəsinin üzvləri bu şanlı tarixi yazan qəhrəmanlar arasında yer alıblar. Qələmi silaha dəyişənlərlə yanaşı, arxa cəbhədə öz qələmləri ilə Azərbaycan həqiqətlərini dünyaya çatdıran professorlar Elçin Əhmədov və Ziyafət Həbibova, fəlsəfə doktoru, dosent Yusif Ağayev, dosent Zaur Məmmədov kimi fədakar insanların fəaliyyəti kollektivi qürurlandırır.

Xalqımızın tarixinə qızıl hərflərlə həkk olunacaq bu şanlı zəfərin qazanılması və tarixi ədalətin təmin edilməsi uğrunda gedən döyüşlərdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının əməkdaşlarının da iştirak etməsi kollektiv tərəfindən böyük fəxr hissi ilə qarşılanıb.

Azərbaycan dövlətçiliyi tarixinə qızıl hərflərlə yazılacaq bu qələbə xalq-dövlət arasında qarşılıqlı inam və etimadın təzahürü idi. Azərbaycana bu möhtəşəm qələbəni qazandıran Müzəffər Ali Baş Komandanın müdrik qərarları, şanlı ordumuzun gücü və sarsılmaz həmrəyliyimiz xalqımızı yenilməz və qalib etdi.

# Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Vəng kəndindən videogörüntülər yayıb



Azərbaycan Respublikasının Müdafiə Nazirliyi
Kəlbəcər rayonunun Vəng kəndindən videogörüntülər yayıb.

# Biz birlikdə güclüyük!

# Koronavirusun artmasını istəmiriksə, məsuliyyətli olmalıyıq

*Əvvəli 1-ci səh.*

Statistika onu göstərir ki, bizə qonşu olan ölkələrdə - Türkiyədə, Rusiyada, İranda, Gürcüstanda da vəziyyət ürəkaçan deyil. Bu təhlükəli virusa yoluxanların və bu səbəbdən dünyasını dəyişənlərin saylarındakı artım hər gün sürətlə yüksəlməkdə davam edir. Eyni vəziyyət ölkəmizdə də müşahidə olunur. Yaranmış kritik vəziyyətə görə karantin rejimi sərtləşdirilib. İnfeksiyanın yayılmasının qarşısını almaq məqsədilə müxtəlif tibbi-profilaktik tədbirlər gücləndirilib.

Ümumiyyətlə, COVID-19 bəlası dünyanın kabusuna çevrilməyə başladığı ilk günlərdən Azərbaycanda məhdudlaşdırıcı tədbirlər diqqət mərkəzində olub. Ölkəmizdə mütəmadi olaraq infeksiyanın yayılma sürətini zəiflətmək üçün lazımi işlər həyata keçirilir. Nazirlər Kabineti yaranmış sanitar-epidemioloji vəziyyəti nəzərə alaraq ölkə ərazisində xüsusi karantin rejiminin müddəti dekabrın 28-dək uzadıb. Əyani məktəbə qayıtmağın riskli olduğu nəzərə alınaraq bütün təhsil pillələri üzrə tədrisin distant təşkili davam etdirilir. Hər həftə sonları paytaxtın mərkəzi və qəsəbələrdəki əsas küçə, prospekt və yollarında xüsusi dezinfeksiya işləri aparılır. Bu zəruri tədbirlər bölgələrdə də mütəmadi olaraq həyata keçirilir. Lakin təəssüf ki, oktyabr ayından bir sıra obyektiv və subyektiv səbəblərdən yeni növ koronavirus infeksiyasına gündəlik yoluxmada nəzərəçarpan artımın qarşısını almaq mümkün olmayıb.

Hökumət, əlaqədar strukturlar ölkədə COVID-19-dan əhalini qorumaq, təhlükənin miqyasını azaltmaq üçün gərgin çalışsa da, hələ ki gözlənilən nəticə yoxdur. Bunun əsas səbəbkarları çox təəssüf ki, elə vətəndaşlar özləridirlər. Bəziləri bilməyərəkdən, bir çoxları isə təhlükə barədə xəbərdarlıqları qulaqardına vuraraq həm özlərini bəlaya düçar edirlər, həm də yaxınlarını, doğmalarını.



Başa düşmək olar ki, əksəriyyət küçələrə çıxmaq, parkları dolaşmaq, dostları ilə görüşmək istəyir. Amma bu, sadə həqiqətdir, indi hər kəsin ağlından keçirdiyi bütün işləri reallaşdırması üçün münbit şərait yoxdur. Bu, həmin arzuların sonsuzadək gerçəkləməyəcəyi anlamına gəlmir. Sadəcə, bir az səbirli olmaqda fayda var. Əslində, əhalidən tələb olunanlar mürəkkəb, yaxud yerinə yetirilməsi çətin işlər də deyil. Mütəxəssislər nəzərə çatdırırlar ki, bəşəriyyətin koronavirus bəlasından qurtulması üçün, ilk növbədə, sadə və zəruri qaydalara əməl edilməlidir. Sosial məsafə saxlanılmalı, tibbi maskadan istifadə edilməli, gigiyenik qaydalara əməl olunmalıdır. Yoxsa COVID-19 infeksiyasına yoluxma halları kəskin artmaqda, sanitar-epidemioloji vəziyyət pisləşməkdə davam edəcək. Diqqətə çatdırdığımız sadə və zəruri qaydalara əməl etməklə isə yalnız özümüzü deyil, həm də ətrafımızdakı insanları yeni növ koronavirusdan qoruyuruq. Hər kəs diqqətli olmalı, COVID-19-a yoluxduğundan şübhələnirsə, xəstəliyin əlamətlərini hiss edirsə, həkimə müraciət etməlidir. Evdə müalicəyə gəlincə, bu zaman müalicənin həkim nəzarəti altında aparılması tövsiyə olunur.

Lakin verilən məlumatlardan aydın olur ki, bəziləri hətta koronavirus xəstəsi olduğunu bildiyi halda da qaydaları eyninə almır. Evdən çıxma qadağasına baxmayaraq, nəinki yaşayış yerini tərk edir, elələri var ki, başqa şəhərlərə belə getmək niyyəti ilə yola çıxmaqdan belə çəkinmirlər. Verilən məlumata görə, Azərbaycanın bölgələrində koronavirusa yoluxduğu halda evdən çıxaraq ictimai yerlərə gedən 10-dan çox şəxs saxlanılıb. Bu barədə DİN Mətbuat xidmətindən bildirilib. Məlumata görə, Tovuz rayonu İbrahimhacılı kənd sakini Sakit Gülməmmədovun ev şəraitində müalicə almasına baxmayaraq, Qazax rayonuna getməsi aşkarlanıb. Quba rayon ərazisində qurulmuş karantin postunda xidmət aparan zaman yaşadığı evi qanunsuz olaraq tərk edən koronavirus xəstəsi, rayon sakini Mübariz Şirinov saxlanılıb. O, qaydaları pozaraq Bakı şəhərinə getmək istəyib. Astara rayonunun Kijəbə qəsəbəsinin sakini Vüsal Babayev və Maşxan kənd sakini F.Babayevaya COVID-19 infeksiyası testinin pozitiv nəticəsinə görə ev şəraitində müalicə təyin edilsə də, onların yaşayış yerlərini tərk etdiyi müəyyən edilib və saxlanılaraq yaşadıqları ünvanlara geri qaytarılıblar. Dünənədək Astarada yaşayış yerini tərk etmiş 5 nəfər koronavirus xəstəsi barəsində cinayət işi başlanılıb və hazırda istintaqı davam etdirilir. Göyçay rayonunun Kürdəmiş kənd sakini Nicat Babaşov koronavirusa yoluxsa da, evi tərk etdiyi üçün saxlanılıb. Oxşar faktlar Siyəzən, Xaçmaz, Xızı, Ağsu, Ağcabədi, Bərdə rayonlarında da qeydə alınıb. COVID-19 infeksiyası testlərinin pozitiv nəticəsinə görə ev şəraitində müalicə təyin edilib. Lakin onlar yaşayış yerlərini tərk etdikləri aşkar olunub və yaşadığı ünvana geri qaytarılıb. Qeyd edilən hər bir faktla bağlı cinayət işi başlanılıb, istintaq davam etdirilir.

Eyni fakt - koronovirus xəstəsinin yaşayış yerini tərk etməsi faktı Bakıda və ərtaf rayonlarda da baş verir. Dünən Abşeron Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən keçirilən müvafiq tədbirlər nəticəsində ev şəraitində müalicə alan koronavirus xəstəsi Xırdalan şəhərində yaşayan Elnarə Hüseynova saxlanılıb. Bu barədə DİN-in Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, aktiv COVID-19 virusunun daşıyıcısı olan bu şəxs karantin qaydalarını kobud şəkildə pozaraq yaşadığı ünvanı tərk etdiyi aşkarlanıb. Müəyyən edilmiş tibbi prosedurlar gözlənilməklə o, yaşadığı evə qaytarılıb. Və barəsində Cinayət Məcəlləsinin 139-1.1 (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

Belələrinin qanunla cəzaları məlumdur. Və qanun onlara layiq olduqları cəzanı verir. Lakin başqa bir mətləb insanı çox düşündür. Tutaq ki, heç kimsə görmür, heç bir yoxlama aparılmır, heç kamera da çəkmir. Bəs insanın öz vicdanı? İnsan nə qədər vicdanını itirməlidir ki, təhlükəli virusun daşıyıcısı olduğunu bildiyi halda, xəbərdarlıqdan kənara çıxmalı, yaşayış yerini tərk etməlidir? Həm də bununla neçə-neçə insanı yoluxduracağını yaxşı bildiyi halda. Bəlkə bu xəstələr düşünürlər ki, onların orqanizmi güclüdür və xəstəliyə qalib gələcəklər. Və bəlkə də bu, doğrudan da, belədir. Ancaq onların yoluxdurduğu insanların COVID-19-a yenilməyəcəyinə kim zəmanət verə bilər? Bir nəfər gör neçə həyatın sönməsinə vəsilə ola bilər.

Hər gün KİV-də, sosial şəbəkələrdə həyəcan təbili çalınır ki, yaxşılığa doğru dəyişikliklər müşahidə olunmur, virusun geniş yayılma tendensiyası təşviş yaradır. İndilikdə təhlükədən uzaq qalmağın yolu Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə, əhalinin sağlamlığının etibarlı qorunması və təhlükəsizliyinin təmin edilməsi məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarlara və müəyyənləşdirdiyi qaydalara əməl etməkdir. Bu bəlalı günlər bitəcək. O vaxtadək səbirli olmaq və qaydalara riayət etmək lazımdır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Koronavirusa daha 4212 nəfər yoluxub, 1760 nəfər isə sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 4212 yoluxma faktı qeydə alınıb, 1760 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 32 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 114 min 25 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 71 min 691 nəfər müalicə olunaraq sağalıb, 1323 nəfər vəfat edib. Aktiv xəstə sayı 41011 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 700 min 654 test aparılıb. Dünənki test sayı isə 18420-dir.






# Bu gün Bakıda 550 küçə dezinfeksiya edilib

Son günlərdə koronavirusa (COVID-19) yoluxanların sayında kəskin artımın olması nəzərə alınaraq noyabrın 28-də Bakı Şəhər İcra Hakimiyyətinin strukturları tərəfindən paytaxt ərazilərdəki əsas küçə, prospekt və yollarda sayca 17-ci dəfə həyata keçirilən əlavə gücləndirilmiş dezinfeksiya işləri zamanı ümumilikdə 550 küçə dezinfeksiya olunub.

Bakı Şəhər İcra Hakimiyyəti Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görülən bu işlər Bakı şəhərində sakinlərin həyatının təhlükəsizliyinə yönələn tədbirlərin bir hissəsi olaraq mütəmadi davam etdiriləcək.



Koronavirusun daha çox yayılmasına imkan verməmək üçün karantin qaydalarına ciddi riayət etmələri vətəndaşlardan bir daha xahiş olunur.

# Yaşayış yerini tərk edən koronavirus xəstələri saxlanılıb

### Quba

Rayon Polis Şöbəsinin əməkdaşları rayon ərazisindəki karantin postunda xidmət zamanı yaşadığı evi qanunsuz olaraq tərk edən koronavirus xəstəsi aşkarlayıblar. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Quba regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, araşdırmalarla həmin şəxsin rayon sakini Mübariz Şirinov olduğu müəyyən edilib.

Ona koronavirus testinin nəticəsi pozitiv olduğuna görə, ev şəraitində müalicə təyin edilsə də, Mübariz Şirinov qaydaları pozaraq Bakı şəhərinə getmək istəyib.

Dərhal həmin əraziyə həkim briqadası dəvət edilib və təcili tibbi yardım avtomobili ilə M.Şirinov yaşadığı ünvana geri qaytarılıb.

Oxşar faktlar Siyəzən, Xaçmaz və Xızı rayonlarında da qeydə alınıb.

Belə ki, Siyəzən rayon sakini Yusif Vəliyevə, Xaçmaz rayon sakini Sərdar Sərdarova və Xızı rayon sakini Səfaqət Abasovaya COVID-19 infeksiyası testlərinin pozitiv nəticəsinə görə ev şəraitində müalicə təyin edilib. Lakin adı çəkilən şəxslər təyin edilən qaydalara baxmayaraq, yaşayış yerlərini tərk ediblər.

Polis əməkdaşları tərəfindən qaydaları pozan hər üç şəxsin qanunazidd hərəkətinin qarşısı dərhal alınaraq müəyyən edilmiş tibbi prosedurlar gözlənilməklə yaşadıqları ünvanlara qaytarılıblar.

COVID-19 infeksiyasının daşıyıcısı olan şəxslərlə profilaktik söhbətlər aparılıb və tam sağalanadək evdən çıxmamaları barədə ciddi xəbərdarlıq edilib.

Həmin şəxslərin törətdiyi əmələ hüquqi qiymət verilməsi üçün rayon polis şöbələrində araşdırmalar aparılır.

### Füzuli

Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, noyabrın 20-də COVID-19 virusu ilə bağlı verdiyi testin nəticəsi pozitiv olan rayon sakini 1972-ci il təvəllüdlü İbişov Səlyan Allahverdi oğlu karantin rejiminə əməl edərək həmin müddəti evdə keçirməli olduğu halda, noyabrın 27-də rayonun Mahmudlu-1 kəndi ərazisində həmkəndliləri ilə söhbət edərək təmasda olmaqla epidemiya əleyhinə, eləcə də karantin rejimini kobud surətdə pozub yeni növ koronavirus infeksiyasının yayılması üçün real təhlükə yaradıb.

Faktla bağlı Füzuli Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanıb. Cinayət işi istintaqın aparılması üçün aidiyyəti üzrə Füzuli Rayon Polis Şöbəsinə göndərilib.

Hazırda iş üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

### Tovuz

Rayon Polis Şöbəsinin əməkdaşları koronavirus testinin nəticəsi pozitiv çıxan İbrahimhacılı kənd sakini Sakit Gülməmmədovun ev şəraitində müalicə almasına baxmayaraq, karantin qaydalarını kobud şəkildə pozaraq Qazax rayonuna getdiyini aşkarlayıblar.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Gəncə regional qrupundan AZƏRTAC-a bildiriblər ki, müəyyənləşdirilmiş tibbi prosedurlar gözlənilməklə S.Gülməmmədov yaşadığı evə göndərilib. Onun barəsində Tovuz Rayon Polis Şöbəsinin istintaq bölməsində cinayət işi başlanıb. Hazırda faktla bağlı təhqiqat aparılır.

# Özgə torpağında çirkli çəkmələrlə

Hüseynbala MİRƏLƏMOV

Hekayə

Qagik sarsılmışdı, nəyi gözləsə də məhz bunu gözləmirdi. O, ailəsini evinə aparmadan, bircə gün, bircə saat körpəsi ilə birgə yaşamağa macal tapmamış cəbhəyə getməli idi. Yaxşı bilirdi ki, zorla avtobuslara doldurulub aparılan cavanlar elə o gedən olur. Nə haqlarında bir xəbər gəlir, nə də yerləri, yurdları bilinir.

Doğrudur, Yerevanda tezliklə qələbə paradı olacağından, Qarabağda uğurlu döyüşlər getdiyindən, Tovuz bölgəsi başda olmaqla yeni-yeni torpaqların alınacağından, Gəncənin dağıdılmasından, Bərdənin yerlə yeksan olunmasından söz-söhbətlər gedirdi. Erməni ordusunun igidliyindən, dönməzliyindən ağızdolusu danışırdılar. Amma Qagik anlayırdı ki, bütün bunlar boş, mənasız söz-söhbətlərdir.

Qagik özü ayıq-sayıq insan idi. Müxtəlif ölkələrin telekanallarını izləyirdi. Yaxşı bilirdi ki, hələ Qarabağda indiyə qədər belə qan-qırğın olmayıb. Azərbaycan əsgərləri hər yerdə irəliləyir, erməni tankları tərpənməyə macal tapmır, yerindəcə vurulur. Hətta erməni döyüşçülərinin cəsədlərini belə yığmaq kiminsə yadına düşmür. Azərbaycanın dəhşətsaçan PUA-larından, hər zəfərdən sonra Azərbaycan Prezidentinin efirə çıxıb xalqı təbrik edərək "İti qovan kimi onları qovuruq" söyləməsindən də xəbərdar idi.

Qagikin içini suallar xəncər kimi doğramaqdaydı: Nə üçün arvadını və uşağını xəstəxanadan buraxmamışdılar? Nə üçün onun fikrini belə öyrənmədən zorən "könüllü" adıyla müharibəyə aparırdılar? Şəraitin girovu olmaq nə yaman ağırmış.

Qagik anidən yazıqlaşmışdı, maskalılara barı arvadını, oğlunu görmək istədiyini bildirmişdi, amma heç biri ona əhəmiyyət verməmişdi. Onu qamarlayıb hətta yanındakı anasıyla belə düz-əməlli xudahafizləşməsinə imkan vermədən maşına basmış, birbaşa hərbi komissarlığa aparmışdılar.

Hərbi çağırış məntəqəsindəki orta yaşlı zabit yerindən qalxmadan ona "Azərbaycana yollanmaq" hökmü kəsərkən "Bizim qədim Qarabağımız səni gözləyir. Biz orda Artsax hökuməti qurmuşuq, onu təhlükədən qurtarmalısan" söyləyəndə Qagik "Artsax" sözündən diksinmişdi. Dillənib ağzına gələni bu zabitə demək istəmiş, özünü güclə saxlamışdı. Eşitmişdi ki, çağırışçılardan kimsə tabe olmayanda layiqli cavab alır, onu neçə gün həbsdə saxlayır, sonra da avtobusa basıb göndərirlər lazım olan yerə. Ona görə də sakit-sakit, istehzalı baxışla zabiti süzmüşdü. Zabit də, əslində, Qagikin bu baxışlarının mənasını anlamışdı. Daha nəsə deməyə lüzum görmədən onu gətirən adamlara işarə eləmişdi, maskalılar onu çağırış məntəqəsinin arxa qapısından həyətə keçirmiş, içi cavanlarla dolu avtobusa mindirmişdilər.

Ümid sonda ölür. Qagik avtobusun içində ailəsi barədə nigarançılıqdan qurtulmaq üçün daha bir cəhd göstərmiş, salonun ortasında dayanıb gəncləri yerbəyer edən zabitə pıçıltıyla ailəsi barəsindəki nigarançılığını dilə gətirmişdi. Həmin zabitsə Qagikin pıçıltısının müqabilində sanki hamıya eşitdirmək üçün lap ucadan "Sən nigaran qalma, vətən uğrunda vuruşan hər bir erməni əsgərinin buradakı qayğılarını bizim Baş nazir öz diqqətində saxlayır. Nə lazımdırsa, hamısını edəcəklər" söyləmişdi. Qagikin də səsini ucaldaraq "Axı nə vaxt? Mən indi çıxıb gedirəm" deyə şikayətlənməsindən sonra isə zabit söhbətə nöqtəni bu cür qoymuşdu:

- Biz Stepanakertə çatan kimi, hər şey həll olunacaq. Uşağı da, arvadını da aparıb evinizə qoyacaqlar.

Daha Qagik bir söz deməmişdi. O, ruhən sarsılmışdı. Nə isə demək, haqsız olana qarşı mübarizə aparmaq, doğru-düzgünü anlatmaq, ümumiyyətlə, danışmaq üçün onun heyi belə qalmamışdı. Keçib avtobusdakı boş oturacaqda öz yerini tutmuşdu.

Beləcə, sevimli Nunesini görə bilmədən, oğlu Vartanın adına sənəd almağa imkan tapmadan o buraya - bu od-alovun içinə gəlmişdi.

Yenə şiddətli atışma oldu, sonra səs səngidi. Az keçmiş qarışıq insan səsləri gəlməyə başladı. Qagik diqqət elədi, azərbaycanca danışıldığını anlayıb içində bir titrətmə duydu. Azərbaycan dilini ona ali məktəbdə gürcü dili ilə birgə tədris etmişdilər, aydınca başa düşürdü ki, azərbaycanlı əsgərlər bunkerin boş olduğuna, buralarda kimsənin qalmadığına əminlik bildirirlər. Demək, buralar artıq onların nəzarəti altındaydı.

Qagik barmaqlarını dodaqlarının üstünə apardı, dostlarına səs çıxarmamaq işarəsi verdi. Ani qərar qəbul edilməliydi. Burada qalmağın nə mənası var idi? Artıq hər şey aydın idi, onların taleyi həll olunmuşdu. Bu ərazilər azərbaycanlıların əlində idisə, demək, sağ qalmaq ehtimalları yox idi. Burada qalsalar, susuzluqdan və acından öləcəkdilər. Çıxsalar da, qəzəblənmiş azərbaycanlı əsgərlərin gülləsinə tuş gələcəkdilər. Cəbhəyə yollananda onları təlimatlandırmışdılar ki, "Azərbaycanlı əsgərlərin əlinə düşən kimi sizi tikə-parça edəcəklər. Təslim olmağı heç ağlınıza da gətirməyin".

*(Əvvəli qəzetin 28 noyabr tarixli nömrəsində)*



Yuxarıdakı səslər avazıdı. Lətifə danışan artaşatlı əsgər gözlənilmədən avtomatını qaldırıb öz alnına tuşladı. Sonra da silahını əlində oynadıb yerə çırpdı.

- Mən azərbaycanlı əsgərlərə güllə atmamışam, heç kimi öldürməmişəm. İnanmıram, onlar bizim Zverik kimi başkəsən olsunlar, - bunları dedi və Qagikin üzünə baxdı. Qagik onun dediklərini sakit-sakit dinlədi. Görünür, çıxış yolu elə buymuş. Təslim olmalıymışlar.

Digər əsgərlərə də ayağa qalxmağa işarə elədi. Silahları toplayıb bir yerə yığdı. Yuxarıdakı danışıqlar yenidən yaxınlaşdı. Yəqin ki, artaşatlı əsgərin silahını divara vurmasının səsini yuxarıda eşitmişdilər.

- Çıxın, siz mühasirədəsiz! - azərbaycanlı əsgərlərdən birinin səsi aydınca eşidildi. Doğrudur, digər əsgərlər azərbaycanca bilməsələr də, bu hökmlü səsin nə demək olduğunu Qagiklə birgə tam anladılar.

Qagik səsini ucaldıb əvvəlcə təslim olduqlarını bildirdi, sonra isə toplanmış silahları bunkerin açıq tərəfindən yuxarıya uzatdı. Azərbaycanlı əsgərlər silahları aldılar. Yuxarıdan yenə səs gəldi:

- Neçə nəfərsiz?!

Qagik onlara beş nəfər olduqlarını, silahların da hamısını təhvil verdiklərini bildirdi.

Azərbaycanlı əsgərin yumşaq davranışı Qagikin qəlbinə dolmuş bütün qaranlığı bir anlıq dağıtdı. Onun ürəyində ümid işığı yandı. Nə qədər yaxında olsa da, deyəsən ölüm bu cavan bəxtsizlərə güzəştə getmək fikrində idi.

Bayaqkı azərbaycanlı əsgərin səsi yenidən eşidildi:

- İndi bir-bir çıxın!

Qagik əvvəlcə artaşatlı yumoristə, sonra da digərlərinə baxdı. Deyəsən, heç kim yerindən tərpənmək istəmirdi. Axır ki, özü irəli yeridi. Sürünüb bunkerdən çıxdı. Gözlərinin qabağında iki azərbaycanlı əsgər var idi. Silahlarını da hazır tutmuşdular. Biri qarabəniz, hündürboy idi, əmrləri o verirdi. Digərinin boyu nisbətən gödək idi. Hündürboy olan pozuq rus dilində Qagikə başa salmaq istədi ki, yoldaşlarını bayıra çıxarsın. Qagik azərbaycanca yaxşı bildiyini söyləyib, "hardan bilirsən" sualını da yerli-yataqlı cavablayıb yoldaşlarını səslədi. Yoldaşları çıxan məqamda Qagik azərbaycanlı əsgərlərin gözlərinin içini diqqətlə süzdü. Heç bir qəzəb, kin-küdurət görmədi. Bir az da ürəkləndi.

Digər dörd erməni əsgəri də bunkerdən çıxdılar.

Balacaboy azərbaycanlı əsgər bir qədər kənarda durub silahını hazır saxladı. Hündürboy olanı isə erməni əsgərlərin silahsız olduğunu dəqiqləşdirmək üçün onların üst-başlarını bir-bir yoxladı.

Düzdür, azərbaycanlı əsgərlər onlara niftətlə baxmırdılar. Heç deyəsən, silahlarını işə salmaq fikirləri də yox idi. Qagik bunu hiss etsə də, içini didən şübhəni də gizlətmədi:

- İndi bizi öldürəcəksiz?

- Axı niyə öldürməliyik? Bunu sənə kim dedi?

Qagik dillənməmiş artaşatlı əsgər rus dilində söylədi:

- Bizimkilər deyirlər ki, siz adamı tutan kimi parçalayırsınız. Gözlərini çıxarır, başını əzirsiniz.

Hündürboy əsgər üzünü kənarda silahını hazır vəziyyətdə saxlamış əsgər yoldaşına tutdu:

- Atəş, bu nə danışır?

Atəş əvvəlcə güldü, sonra da üzünə bir tutqunluq gəldi. Qəzəbləndi, ancaq qəzəbini büruzə vermədi:

- Turan, bunlar yəqin bizi özləri ilə dəyişik salıblar. Xocalı qətliamını elə bil bunlar yox, biz törətmişik.

- Doğru deyirsən, Atəş, axı bunların böyükləri insanlıq sifətlərini itiriblər, Xocalıda törətdikləri cinayətin cəzasını almayıblar. Ona görə də uşaqlarının beyinlərini yeyib bizim üstümüzə göndərmək üçün bu cür sözlər danışıblar.

Xocalının adı çəkiləndə Qagikin içinə yenidən qorxu doldu, o lap sarısını uddu. Xocalı qətliamına görə bir xalq olaraq cavab verməliydilər, bütün ermənilər cinayətdə bilavasitə təqsirkar sayılırdı.

Hava soyuq idi, qorxu-hörkü də ona qarışıb Qagiki tir-tir titrətməyə başladı. Bu yandan da gözü azacıq aralıda düzülmüş meyidlərə sataşdı. Əsgər yoldaşları idi, bayaq bunkerdən çıxanda hamısı ölümə tuş gəlibmiş. Düz yeddi cəsəd. Zverikin cəsədi daha dəhşətli görünüşə malik idi, yaxınlıqda partlamış mərmi onu paralamışdı. Açıq gözlərində vahimə ifadəsi donub qalmışdı.

Qagik çəkinə-çəkinə Turandan soruşdu:

- Bizi harda güllələyəcəksiz?

Turan Qagikin də, digərlərinin də sanki ayaq üstə öldüklərini, tit-tir əsdiklərini aydınca sezirdi. Təhər-töhürlərindən də görürdü ki, bunlar əsla döyüşçülərə bənzəmirlər, təsadüfən gəlib bu ətçəkən maşına düşənlərdəndirlər. Nəsə yazığı da gəldi onlara. Xüsusən də fürsətdən istifadə edib bura zorla göndərildiyini, uşağını doğum evindən çıxaran məqamda maskalılar tərəfindən oğurlandığını dilə gətirən Qagikə ürəyi yandı. Çox qəddar siması var müharibənin. Onun çıxardığı qərarlara, kəsdiyi başlara bineyi-qədimdən sorğu-sual olmayıb, olmayacaq da!

Ermənilərə bir qədər ürək-dirək verəsi oldu:

- Oturun, dincinizi alın, bir azdan gedərik.

Qagik lap özünü itirdi:

- Haraya? Onsuz da öldürəcəksiz, bizi elə burada öldürün.

Turan güldü. Başını buladı. Özü çəkilib bir tərəfdə əyləşdi və onlara da oturmaları üçün işarə elədi.

Artaşatlı əsgər oturmalarından, demək güllələnmə hökmünün bir qədər yubanacağından cəsarətlənib işarə ilə Turandan siqaret istədi.

Turan daha çox etibar etdiyi Qagiki yaxına çağırıb alışqanı da, siqaret qutusunu da ona verdi. Qagik digər erməni əsgərlərinə də siqaret paylamaq istədi. Onlar çəkən deyilmişlər. Artaşatlı ilə özü siqaret yandırdılar, hərisliklə tüstünü ciyərlərinə alıb siqaretdən həzz duya-duya çəkdilər. Ölüm öncəsi çəkilən son siqaret niyə belə bal dadırmış.

Qagik siqaretini əlüstü çəkib qurtardı, dərhal üzünü Turana tutdu.

- Bilirəm bizi öldürəcəksiz. Amma bir xahişim var.

Turan Atəşlə baxışıb "De, nə xahişin var, eşidirəm" söylədi.

Qagik səsi titrəyə-titrəyə xahişini dilə gətirdi:

- Mən istəyirəm ki, bizi öldürəndən sonra meyitlərimiz bu özgə torpaqda qalmasın. Axı bura bizim vətənimizdən çox uzaqdadır. Ailəmiz barı üstümüzə gələ bilsin.

Əsgər yoldaşları Qagikdən nə danışdıqlarını öyrəndikləri məqamda Turan artıq kövrəlmişdi. Hər kəsi ana doğur. Düşmənin olsa belə, onun da insani hisslərini anlayışla qarşılayırsan, bəzən kövrəlir, bəzən hətta kədərlənirsən. Nə iti azmışdı bu yazığın burada, oturardı öz Yerevanında, isti evində, dünyaya təzə gələn uşağını dizi üstünə qoyub oynadardı indi. Zəmanənin üzü qara olsun.

Turan Qagiklə söhbətləşdi:

- Yəqin yoldaşınla, körpənlə yanaşı atan, anan da indi yolunu gözləyir.

- Atam yoxdur, anam məni tək böyüdüb. Amma düzü, anam barədə düşünmək belə istəmirəm.

- Niyə ki?

- Çünki o düzgün yol seçməyib. Qadın olsa belə, hərəkatçı olub, qatı millətçidir. Müasir erməni gəncini türkə düşmən ruhunda böyüdürlər böyüklərimiz. Onların bu yanlış tərbiyəsi olmasaydı, nə itimiz azmışdı indi bu Azərbaycan torpağında?

- Bəs onda gəlməzdin də. - Turan maraqla dinlədiyi kimi, maraqla da soruşdu: - İnsana ki bir işin nahaq olduğu gün kimi aydın olur, onun bu işi görməsinə nə lüzum? Zorla göndərsələr belə yenə bir vasitə ilə altından çıxa bilərdin.

- Nə edim, belə alındı.

- Bəs sən bilmirdin, özgə torpağa niyə gəlmisən? Bu torpağın sahiblərini öldürməyə gəlmişdin də!

Qagik lap həyəcanlandı, dili dolaşa-dolaşa inkara girişdi:

- İnanın ki, biz Yerevandan bu beş nəfərlə birlikdə gəlmişik. Beşimizi də buraya məcburi gətiriblər. Bu iki nəfər Artaşatdandır, biz üç nəfər Yerevandan. Sizin əsgərlərə biz güllə atmamışıq.

- Axı sizin bunkerdən bizə qarşı döyüşənlər vardı. - Bunu kənarda dayanmış Atəş dedi.

- Doğrudur, vardı, amma onlar bizdən deyildi. Komandir livanlı idi, digərləri də yaşlı adamlar idi. Biz heç onları tanımırıq.

- Hə, tanımırdız, ancaq bir yerdə idiniz, bir taqımda - bunu da Turan dedi.

- Bəli, cismən bir yerdə olsaq da, mənən ayrı idik, biz bax o yerdə leşi qalan komandirin çıxıb döyüşmək əmrinə tabe olmadıq, bunkerdə qaldıq.

Artaşatlı əsgər həyəcanla Qagikin dizinə vurdu ki, nə danışdıqlarından xəbərdar olsun. Qagik tələsik danışıqlarının məğzini əsgər yoldaşlarına başa saldı, sonra da onlardan birinin sualını Turana ünvanladı:

- Samvel soruşur, yəqin sizi də müharibəyə məcbur gətiriblər, eləmi?

Bu söz bayaqdan olduqca səbirli görünən, səbirli davranan Turanı əsəbiləşdirdi. Dodağını qəzəblə çeynədi. Onsuz da soyuqdan göyərmiş dodaqları bir az da göyərdi, sifəti bir az da artıq qaraldı.

- Məcbur gətiriblər, bəli, amma bizimkilər yox, siz! Bizi siz məcbur gətiribsiz bura! Mən Dənizçilik Akademiyasını qurtarmışam. Öz işimin arxasınca getməliydim. İt kimi gəlib doluşmusuz bizim torpaqlara. Nə istəyirsiz bizim yerlərdən?

Turan bunu dedi və hirslə ayağa qalxdı.

Qagik özünü lənətlədi. Heç sözünün yerini bilmir. Vacibmi idi bu köpəkoğlu Samvelin sualını təkrarlasın? Elə əvvəldən bilməyib sözünü-sovunu, əvvəldən dünyanın işlərindən baş açmayıb. Əgər baş açsaydı, heç Yerevanda qalmazdı. Çoxdan arvadını da götürüb Rusiyaya, Kanadaya, Amerikaya, nə bilim, hansı xarabaya çıxıb gedərdi. Təki anası kimilərin fitnə-fəsadına uyub işğala girişən ermənilərin yanında qalmazdı.

Əsgər yoldaşına verdiyi suala görə acıqlandı, dedi, sənin bu axmaq sualın bizim axırımıza çıxacaq.

...Qagik sonlarının çatdığını düşünürdü. Bomboz düzənlikdə, tam yiyəsizlikdə, dişinə kimi silahlanmış iki düşmənin əlinin altında. Harda ədalət axtarırdı, burdamı? Küllərini göyə sovurarlar, uf da deməzlər, bir kimsə də çınqırını çıxarmaz. Və bu düşündükləri onu daxilən didib-sökürdü. Bayaq qəlbinə bir az ümid işığı dolmuşdu. İndi o ümid işığını da özünün yersiz sualıyla üfürüb söndürmüşdü.

Turan əmr elədi:

- Qalxın və qabağa düşüb yeriyin!

Demək, yüz faiz öldürəcəklər!

Qagik də, digər erməni əsgərləri də əmrə əsasən əllərini arxada qoşalayıb sıraya düzüldülər və göstərilən istiqamətə ayaqlarını sürüyə-sürüyə yeridilər.

Qagikə elə gəlirdi ki, onun ayağının altındakı özgə torpağından od qalxır. Bu od onu aşadığan-yuxarıya yandıra-yandıra gəlirdi sanki.

Onlar çox inamsız yeriyirdilər. Dizlərində sanki təpər qalmamışdı. İndicə arxadan avtomat atəşləri açılacağını, işıqlı dünyaya işgəncə ala-ala, ağrıdan qovrula-qovrula gedəcəklərini zənn edirdilər. Bir-birindən xəbərsiz bu an beşinin də beynində eyni sözlər cövlan edirdi. "Axı bizim özgə torpaqda nə işimiz var idi" peşmançılığı ilə beşi də üzülürdü.

Buludun arxasından çıxan günəş ətrafı bir az da işıqlandırdı. Təpəni aşdılar, qarşılarında əsgərlər, hərbi maşınlar, yük avtomobilləri ilə dolu olan bir mənzərə açıldı, az sonra birmərtəbəli ağ tikiliyə - hərbi qərargaha yetişdilər.

Turan onları qarşılayan növbətçi ilə görüşüb komandirin gəlişini gözlədi, orta yaşlı komandir şax yerişlə yaxınlaşanda ona raport verdi:

- Cənab komandir, əməliyyat uğurla başa çatdırıldı! Düşməndən qənimət olaraq beş avtomat silah alındı, beş düşmən əsgəri əsir götürüldü.

Qagik titrək səslə, tam ümidsiz halda paqonlarında iki iri səkkizguşəli ulduz parıldayan komandir səmtə baxıb yazıq-yazıq söylədi:

- Cənab komandir, xahiş edirəm, bizi alçaltmayın, işgəncə verməyin. Dərhal güllələyin. Düzdür, ölüm onsuz da ölümdür. Ancaq öldürən üçün fərq etməsə də, ölən üçün necə ölməyinin fərqi böyükdür...

Komandir azərbaycanca danışan, danışığında da kifayət qədər məntiq duyulan erməni əsgərə maraqla nəzər yetirib söylədi:

- Biz erməni deyilik, biz azərbaycanlıyıq. Biz kişi kimi müharibə aparırıq. Köməksiz əsirə işgəncə vermək, onu öldürmək bizə yaraşmaz. Bu, sizin xislətinizə xas olan şeylərdir. Beynəlxalq konvensiyalar var, sizin taleyiniz onlara uyğun həll olunacaq.

Qagik yuxumu görürdü? Bəlkə qulaqları onu aldatmışdı? Bu nə gözəl xalqdır! Torpağına soxulmuş yadelli qəsbkarlara qarşı necə humanistcəsinə davranır bu xalq.

Ani olaraq hönkürdü. Qırıq-qırıq cümlələrlə əsgər yoldaşlarına komandirin sözlərini tərcümə elədi, ardınca onlara "Bizi öldürməyəcəklər, işgəncə də verməyəcəklər" gözaydınlığını verdi.

Hardansa uzaqlardan qulağına körpə qığıltısı gəldi. Xəyalən körpəsini qucaqladı, öpdü. Onun qulağına pıçıldadı ki, sənin atana öz ermənilərimiz ölüm hökmü çıxarmışdılar, amma azərbaycanlılar bu hökmü ləğv edib ona bəraət verdilər.

Bir qədər keçmiş komandır tapşırıq verdi, Qagikgili kazarma otaqlarından birinə gətirdilər. Turan onları növbətçiyə təhvil verib getmək istəyəndə növbətçinin gözü sırada birinci dayanmış Qagikin palçığa bulaşmış çəkmələrinə sataşdı. Növbətçi gileyləndi ki, bunları bu vəziyyətdə niyə gətirib içəri salmısan, hər yeri batırırlar axı.

Qagik pörtdü, qulaqlarının dibinəcən qızardığını hiss etdi.

Başqalarının torpaqlarına soxulmağın, bu torpağı batırmağın verdiyi xəcalət çox ağır xəcalət idi.



# Kəlbəcər uzunömürlülər diyarıdır

Ötən əsrin səksəninci illərində Kəlbəcəri keçmiş SSRİ miqyasında tanıdan həm də uzunömürlülər diyarı olması idi. Loğman təbiəti, dərman suları, bitkiləri burada yaşayanlara sağlam can, gümrah bədən, uzun ömür bəxş etmişdi. 1986-cı ilin statistik məlumatlarına əsasən, rayonda 89 nəfər 100 və daha çox yaşı olanlar, 215 nəfər 90-99 yaşlılar qeydə alınmışdı. 319 cütlük 50 il və ondan artıq birgə ömür sürmüşdü, 100 il birgə həyat sürən isə Yanşaq kənd sakinləri İlyas Cəfərov və Xatın nənə idi. İlyas 125, Xatın nənə isə 121 il ömür sürmüş müdriklərimiz kimi kəlbəcərlilərin tarixində yaddaqalan iz qoymuşlar.





Başlıbeldən Yəhya kişi 117, Almalıqdan Güləndam nənə 147, Qamışlıdan Rüstəm kişi 106 il ömür sürmüş və bir dəfə də olsun iynə-dərman qəbul etməmişlər.

Hələ ötən əsrin 80-ci illərinin əvvəllərindən Kəlbəcər uzunömürlülərin sayına görə SSRİ məkanında birinci yeri tuturdu.

1983-cü ildə Litva yazıçısı və publisisti Eduard Qirtçis on gün Kəlbəcərdə qalaraq Güləndam nənə, İlyas baba və Rüstəm kişi ilə, habelə Başlıbeldə yaşayan, yaşı 100-ü keçmiş 6 nəfərlə görüşərək toylarda iştirak etmiş, Kəlbəcər haqqında kitab yazmışdır. 1985-ci ildə "Sovetskaya jenşina" jurnalının əməkdaşları Kəlbəcərdə olmuş, İlyas baba, Xatın nənə, Rüstəm kişi və Güləndam nənə haqqında çox geniş materiallar hazırlamışdılar. Bundan başqa, həmin illərdə Kəlbəcər haqqında "Toy bir dəfə olur" və "Kəlbəcər yolları" adlı qısametrajlı filmlər çəkilmişdi. SSRİ-nin müxtəlif televiziya kanallarında, o cümlədən "Vremya" informasiya proqramında 100 il birgə ömür sürmüş İlyas və Xatın Cəfərovlar haqqında geniş süjetlər göstərilmişdi.

Əvəzolunmaz təbiəti, sərvəti: qızılı, civəsi, uranı, 3 milyard kubmetrlik mərmər yataqları, 280 min hektar meşəsi, 3000-dən çox dişgöynədən, keyvir bulağı, 300-dən artıq narzan mənbəyi, habelə Ermənistanla, daim türk qanına susayan daşnaklarla Azərbaycan arasında qala qapısı olması Kəlbəcəri hələ sovetlər birliyi dönəmində də diqqət mərkəzində saxlamış, onun inkişafı üçün müəyyən tədbirlər görülmüşdür. Bu danılmaz həqiqətdir ki, bizi istəməyənlər Kəlbəcəri yaylaq gözündə görmüş, əhalinin burada yaşamasını da lüzumsuz saymış, bəzən də guya çətin şəraitdə yaşayan əhalinin halına yanırmış kimi köçürülməsini məsləhət bilmişdir. Bu zənginliyi ələ keçirmək üçün məkrli niyyətlər var idi. Yaxşı ki, ağıllı insanlar, ağsaqqallar, xüsusən də Ümummili Lider Heydər Əliyev bu "düşünülmüş" addımların reallaşmasına o zamanlar imkan verməmişlər.

İnkar etmək mümkün deyil ki, Kəlbəcərin inkişafına dair qərar yetmişinci illərin sonlarında qəbul olunmuşdur.

Dağlıq Qarabağla Ermənistan arasında yerləşməsi, təbii qala kimi sədd çəkməsinə baxmayaraq, onun strateji əhəmiyyətinə fikir verilmədiyindən 1988-ci ildə ermənilər torpaq iddiasına başlayandan Kəlbəcərin Ağdərə rayonu ərazisindən yolları bağlanmış və əhali, eləcə də ictimai təsərrüfatlar mühasirədə qalmışdı. Bunun üçün müxtəlif istiqamətlərdə yollar araşdırılır, mühasirənin yarılmasına çalışırdılar. Təbii ki, bütün bunların təşəbbüsü rayon rəhbərliyi tərəfindən irəli sürülürdü. Qəti qərara alınmışdı ki, Laçın və Gəncə istiqamətində müvəqqəti olsa da, avtomobil yolları çəkilməlidir. Ona görə də 1988-ci il aprel ayının 24-də iki istiqamətdə - Laçın və Gəncə tərəfdən yolların çəkilişinə başlandı.

1988-ci ilin iyun-iyul aylarında Kəlbəcər-Laçın istiqamətində çəkilən yol Laçının Qorçu kəndində birləşdi.

1988-ci il sentyabr ayının 18-də artıq əsrlərə, minilliklərə baş əyməyən Murovdağ ram edilmişdi: Kəlbəcər-Gəncə yolu tamamlanmışdı. Yolun açılışı əsl toy-bayrama (Kəlbəcərin mühasirə illərində belə bir əhvali-ruhiyyə olmasa da) çevrilmişdi. Xanlar (indiki Göygöl) rayonunun Toğana kəndindən bir neçə kilometr aralıdakı Turşsu bulağının üstündə təntənəli açılış mərasimi keçirilmişdi.

Azərbaycanda və Ermənistanda baş verənlər Kəlbəcərdə sosial-psixoloji durumu dözülməz həddə çatdırmaqdaydı. O zamanlar rayon rəhbərliyinin qarşısında, sözün həqiqi mənasında, həlli çətin olan problemlər dururdu.

Ermənistan ərazisindən, xüsusən də Göyçə mahalından azərbaycanlıların qovulması Kəlbəcər üçün əlavə problemlər yaradırdı. Neçə ki azərbaycanlılar orada idilər, ermənilərin Kəlbəcərə qəfil və amansız hücumlarının qarşısı alınırdı. Çünki Kəlbəcərin Ermənistanla sərhəd yaxınlığındakı Basarkeçər rayonunun, demək olar ki, bütün kəndləri azərbaycanlıların idi. Onların oradan çıxarılması, tarixi torpaqlarından qovulması 136 kilometrlik sərhəd zonasında müdafiə tədbirləri görmək zərurətini kəskin şəkildə ortaya çıxarmışdı.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***



# Azərbaycanın haqq savaşı xarici mətbuatda




Rumıniyanın "News24hours" xəbər portalı Azərbaycan Prezidenti İlham Əliyevin Kəlbəcər rayonunun işğaldan azad olunması ilə bağlı xalqa müraciəti ilə bağlı informasiya yayıb.

AZƏRTAC xəbər verir ki, yazıda Kəlbəcər rayonunun erməni işğalçıları tərəfindən zəbt edilməsinin tarixindən danışılır, Azərbaycanın güclü ordusunun nümayiş etdirdiyi şücaət və peşəkarlıq sayəsində torpaqlarımızın işğaldan azad olunduğu bildirilir. Həmçinin məkrli düşmənin bu ərazilərdə törətdiyi vandalizm aktları, o cümlədən mədəni abidələrin dağıdıldığı, sərvətlərin mənimsənildiyi oxucuların diqqətinə çatdırılır.

Bildirilir ki, Azərbaycan dağılmış bütün infrastrukturu bərpa edərək, rayonu bölgənin turizm və kənd təsərrüfatı mərkəzinə çevirmək niyyətindədir.

❖❖❖




Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Kəlbəcər rayonunun işğaldan azad edilməsi münasibətilə xalqa müraciətindən bəzi məqamları yayıb.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev: Azərbaycan azad edilmiş bütün əraziləri bərpa edəcək, dirçəldəcək" adlı məlumatda dövlət başçısının Azərbaycanın qədim torpağı olan Kəlbəcərin 28 il əvvəl Ermənistan silahlı qüvvələri tərəfindən işğalı və bunun səbəbləri, ermənilərin bu ərazidə zəngin təbii sərvətləri talaması, dövlətimiz tərəfindən Qafqaz Albaniyasına məxsus kilsələrin və məscidlərimizin qorunması, düşmənin isə müsəlman məbədlərində donuz və mal-qara saxlaması, ölkəmizin Vətən müharibəsində həm döyüş meydanında, həm də informasiya və siyasət sahələrində qələbə qazanması barədə fikirləri yer alıb.

Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti Kəlbəcərin və işğaldan azad edilmiş digər rayonların yenidən qurulacağını, bu torpaqlarda inkişaf və tərəqqiyə nail olunacağını da vurğulayıb.

Məlumatda vurğulanıb ki, Azərbaycan dövlətinin başçısı Ordumuzun düşməni məğlubiyyətə uğratmaqla yanaşı, həm də erməni faşizmini darmadağın etdiyini söyləyib.

❖❖❖



"Associated Press" agentliyi erməni işğalı nəticəsində Ağdam şəhərindəki dağıntılar barədə məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə azərbaycanlıların Ağdam şəhərinin azad olunmasının sevincini yaşadıqları, lakin onların dağıntılarla qarşılaşdıqları bildirilir.

Məqalədə şəhərin əsas görməli yerlərindən olan Çörək muzeyi, eləcə də konyak zavodunun dağıdılması xüsusi qeyd olunub.

Uzun fasilədən sonra şəhəri ilk dəfə görən 63 yaşlı Ağdam sakini Arif Hacıyev bildirib ki, şəhərdəki evlərdən, mehmanxanalardan, inzibati binalardan əsər-əlamət qalmayıb: "Elə təəssürat yaranır ki, 12 ballıq zəlzələ baş verib".

61 yaşlı Nəsibə Zamanova isə bildirib ki, doğma evi minalandığı üçün oraya daxil olmayıb.

Müəllif yazır ki, Ağdam şəhərində işğala qədər 50 min nəfər yaşayıb. Evlərinin ağ damları ilə məşhur olmuş şəhər o qədər dağılıb ki, indi oranı "Qafqazın Xirosiması" adlandırırlar.

❖❖❖



"France-24" kanalı Azərbaycanın erməni işğalından azad edilmiş Füzuli rayonundan reportaj hazırlayıb.

AZƏRTAC xəbər verir ki, kanalın Füzuliyə ezam olunmuş müxbiri ətrafda boş, kədərli, müharibə dağıntıları ilə dolu mənzərənin göründüyünü deyir. O bildirir ki, ətrafda minalar, tərk edilmiş kazarma, yol boyunca erməni tankları var. Hər tərəfdə döyüş izləri, döyüş texnikası görünür. Onlardan bəziləri təzə, bəziləri isə əvvəlki döyüşlərdən qalanlardır.

Bildirilir ki, erməni silahlı qüvvələri Füzuli rayonunu işğal etməmişdən əvvəl burada 200 minə yaxın azərbaycanlı yaşayıb.

Reportajda Füzuli azad olunandan sonra doğma yurdlarına gedən rayon sakinlərinin fikirlərinə də yer verilib.

Füzuli sakini Hafiz Tahirov rayona gəldiyini və dağıntılarla rastlaşdığını, ermənilərin hər tərəfi minaladığını bildirir.

Rayonun digər sakini Ramilə Məmmədova deyir: "Bura mənim atamın evi olub. İndi heç nə yoxdur. Erməni vandallarının bizə qarşı bu vəhşiliyini heç vaxt unuda bilmərik. Gənc nəslə nə isə deməyə ehtiyac yoxdur. Onlar hər şeyi özləri görür. Bunları unutmaq olmaz".

Reportajda qeyd edilir ki, 1988-1994-cü illər müharibəsi nəticəsində Füzuli rayonunun mərkəzi ruhlar şəhərinə çevrilib. Ona görə də indi Füzulinin bərpası üçün vaxt lazımdır.

Reportajda o da vurğulanır ki, Azərbaycanın müharibədə qələbəsi bu torpaqları azad etməyə imkan verdi, ancaq insanlar buralara gələrkən doğma yurdlarının dağıntıları ilə üzləşirlər.

❖❖❖



Beynəlxalq birliyin ümumi mövqeyi belədir ki, Qarabağın ərazisi işğal edilib və bu ərazi faktiki olaraq Azərbaycana məxsusdur. Fransanın hakimiyyət orqanları da əvvəlki kimi, bu mövqeyə tərəfdardır. Bundan başqa, payızda vəziyyət xüsusilə kəskinləşən dövrdə qondarma "dqr"i tanıyacağı ilə hədələyən Yerevanda da belə bir qərar qəbul etməyə tələsmirlər. Bu səbəbdən fransız senatorlarının qətnaməsi daha da əhəmiyyətsiz olur.

AZƏRTAC xəbər verir ki, Renat Abdulinin "news.ru" portalında dərc olunmuş məqaləsi bu mövzuya həsr edilib. Müəllif yazır ki, Fransa parlamentariləri belə bir qətnamə ilə çıxış etməklə, əslində Paşinyana "ayı xidməti" göstəriblər, çünki onlar Paşinyanın çoxsaylı vədlərinə baxmayaraq, onun "dqr" haqqında siyasi iradəsinin olmaması üzə çıxıb.

Rusiya Elmlər Akademiyasının Avropa İnstitutunun Fransa Tədqiqatları Mərkəzinin rəhbəri, politoloq Yuri Rubinski qeyd edib ki, Fransa Senatı tərəfindən qəbul edilmiş sənədin forması və statusu ona heç bir hüquqi qüvvə vermir.

Y.Rubinski deyib: "Bu, sadəcə arzudan başqa heç nə deyil. Amma bu sənədin səs çoxluğu ilə qəbul edilməsi faktı həm Fransanın dövlət rəhbərliyinin, həm də bütövlükdə Fransa cəmiyyətinin Dağlıq Qarabağ münaqişəsinə ikili münasibətini əks etdirir. Nəzərə almaq lazımdır ki, Avropa İttifaqı ölkələri arasında ən böyük erməni diasporu Fransadadır, bu diasporun təqribən yarım milyon, bəlkə daha çox üzvü var. Təqribən 20 il bundan əvvəl məhz Fransa 1915-ci il "erməni soyqırımı"nı tanımış birinci ölkə olub. Bu, həm erməni diasporunun təsirini, həm də Qarabağ münaqişəsində ermənilərin düşmənlərinə, yəni məhz Azərbaycana yox, ilk növbədə Türkiyəyə münasibəti əks etdirir: hazırda bir sıra məsələlər barədə - Parislə Ankaranın münasibətləri bir-birinə ziddir".

Ekspert qeyd edib ki, müsəlman diasporu ilə münasibətlər problemi də senatorların diqqət mərkəzindədir. Avropada ən böyük diasporlardan biri olan müsəlman diasporunun üzvlərinin sayı Fransanın əhalisinin 10 faizindən çoxdur. Beləliklə, sözügedən qətnamə Qarabağın özünə aid olmaqdan daha çox Fransanın başqa daxili problemlərini əks etdirir.

Y.Rubinski vurğulayır ki, Fransa Respublikasının ali rəhbərliyi istənilən halda qondarma "dqr"i tanımayacaq: bu, beynəlxalq məkanlarda, o cümlədən BMT-də Fransanın nüfuzuna ciddi xələl vura bilər. Paris ilə Ankaranın arasında közərməkdə olan qarşıdurma isə indiki halda həlledici amil ola bilməz, çünki Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan özü, bəzən ikili ritorikaya baxmayaraq, etiraf edib ki, onun ölkəsi Avropanın bir hissəsidir.

❖❖❖




Almaniyanın "Bayreuther Sonntagszeitung" qəzetində dərc olunmuş "İşğal beynəlxalq hüquqa ziddir" adlı məqalədə soydaşımız Pərvin Məhərrəmovun Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə bağlı fikirləri yer alıb.

Qeyd edək ki, Pərvin Məhərrəmov 2008-ci ildə Almaniyaya gələrək həkim kimi işləməyə başlayıb və hazırda fəaliyyətini Bayroyt Klinikasında davam etdirir.

P.Məhərrəmov Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü barədə ətraflı məlumat verib. Bildirib ki, bu təcavüz nəticəsində Dağlıq Qarabağ regionu və 7 ətraf rayon, yəni Azərbaycan ərazisinin beşdəbiri Ermənistan ordusu tərəfindən işğal olunmuşdu. Bir milyondan artıq azərbaycanlı isə qaçqın və məcburi köçkünə çevrilib. İşğal 30 ilə yaxın müddətdə davam edib. Beynəlxalq ictimaiyyət BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi əsasında Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasını və məcburi köçkünlərin geri qaytarılmasını tələb edib. Lakin bu tələblər Ermənistan tərəfindən yerinə yetirilməyib. Münaqişənin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyəti də bir nəticə verməyib. Beynəlxalq ictimaiyyət, o cümlədən Almaniya hökuməti işğal olunmuş Dağlıq Qarabağı və ətraf rayonları Azərbaycanın tərkib hissəsi kimi qəbul edir. Hətta Almaniya Bundestaqı 2009-cu ildə BMT TŞ-nin qətnamələrinin icrasını tələb edib.

Bildirilib ki, münaqişə cari ilin iyul ayından etibarən Ermənistanın Tovuz bölgəsində Azərbaycana qarşı həyata keçirdiyi təxribat nəticəsində kəskinləşib, cari il sentyabr ayının sonundan etibarən isə daha intensiv xarakter alıb. Müharibə zamanı Ermənistan ordusu azərbaycanlı mülki əhalinin sıx şəkildə yaşadığı bölgələrə raket zərbələri endirib və nəticədə çoxsaylı mülki şəxs həlak olub. Ermənilər qəsdən mülki obyektləri hədəfə alıblar.

Qeyd edilib ki, bu yaxınlarda hərbi əməliyyatların dayandırılması ilə bağlı Azərbaycan, Rusiya və Ermənistan tərəfindən razılaşma əldə edilib. Razılaşma 30 il ərzində mövcud olmuş status-kvonun dəyişməsinə və Ermənistan üçün böyük itkilərə səbəb olub. Ermənistanda geniş kütlə razılaşmanı böyük narazılıqla qarşılayıb və hökumətin istefasını tələb edib. Bu razılaşmanın hər iki xalq üçün sülh gətirəcəyinə inam ifadə edilib.

❖❖❖




"Euronews" telekanalı Azərbaycanın işğaldan azad edilmiş Ağdam rayonu ilə bağlı reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, reportajda 1990-cı illərdə, münaqişənin qızğın vaxtında Ağdamdan qovulmuş azərbaycanlıların indi öz doğma yurdlarına qayıtmaq arzuları barədə məlumat verilir.

Bildirilir ki, "Ağdam" sözü Azərbaycan dilindən tərcümədə "ağ ev" deməkdir. Bu şəhərdə qanlı döyüşlərin izləri qalıb. Ona görə Ağdamı indi bəzən "Qafqazın Xirosiması" adlandırırlar.

Reportajda Ağdam sakinlərindən birinin fikirlərinə də yer verilib. O, vaxtilə təhsil aldığı məktəbin yerləşdiyi ərazini göstərir. Qeyd edir ki, həmin ərazidə digər qurumlar da fəaliyyət göstərirdi. İndi burada heç nəyi tanımaq mümkün deyil. Ermənilər nə var idisə, hamısını darmadağın ediblər. Heç kim öz küçəsini tapa bilmir.

Reportajda qeyd edilir ki, uzaqdan Ağdam məscidinin minarələri görünür. Ermənilər şəhəri tutandan sonra bu kompleksin çox hissəsini dağıdıb, binanın özündən isə mal tövləsi kimi istifadə ediblər. Bu gün son 28 ildə ilk dəfə buradan azan səsi eşidilir.

Bildirilir ki, Azərbaycan Ağdama nəzarəti bərpa edəndən sonra ərazinin minalardan təmizlənməsinə başlanılıb. Təxminən 30 il bundan əvvəl minlərlə azərbaycanlı buradakı doğma yurdlarını tərk edib məcburi köçkün vəziyyətinə düşüb. Onlar indi buraya qayıtmağı arzu edirlər. Azərbaycan hökuməti Qarabağda və ona bitişik rayonlarda bərpa işlərinə başlamağı planlaşdırır.

❖❖❖




Küveytin ingilisdilli "Kuwait Times" qəzetində Azərbaycan Ordusunun Kəlbəcər rayonuna daxil olması barədə məqalə dərc edilib.

Ölkəmizin Küveytdəki səfirliyindən AZƏRTAC-a bildiriblər ki, məqalədə Azərbaycan Müdafiə Nazirliyinə istinadla əsgərlərimizin minaları təmizləyərək rayona daxil olduqları qeyd edilib.

Yazıda sentyabrın 27-dən başlayaraq Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları keçirdiyi və Ermənistanın bundan sonra Kəlbəcər, Ağdam və Laçın rayonlarını geri qaytarmağa razılıq verməsi barədə sazişə imza atmağa məcbur edildiyi diqqətə çatdırılır. Həmçinin qeyd edilir ki, Azərbaycan humanitar əsaslarla ermənilərin Kəlbəcərdən çıxması üçün müəyyənləşdirdiyi vaxtı 10 gün uzadıb. Bildirilir ki, noyabrın 20-də Ağdam rayonu təhvil verilib və dekabrın 1-dək Laçın rayonu Azərbaycana qaytarılacaq.

Eyni zamanda bildirilib ki, 30 ildən sonra azərbaycanlılar öz torpaqlarına qayıdacaqlar. Lakin Kəlbəcəri tərk edən ermənilər buradakı hər şeyi məhv edib, o cümlədən elektrik kabellərini, ağacları kəsib, meşələri yandırıb, hətta su elektrik stansiyasının hissələrini avtomobilə yükləyiblər.

Müəllif həmçinin Ermənistan-Azərbaycan münaqişəsi haqqında məlumat verib. Qeyd edib ki, 1990-cı illərdə erməni silahlıları bölgəni ələ keçirərək azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə aparıb və qondarma "respublika" yaradıblar. Lakin onun "müstəqilliyi" beynəlxalq aləm tərəfindən tanınmayıb.

Diqqətə çatdırılıb ki, imzalanan sülh razılaşmasından sonra Ermənistanda etirazlar başlayıb və N.Paşinyanın istefası tələb olunub.

❖❖❖




Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində "Dronların Azərbaycana necə üstünlük gətirdiyini görün" başlıqlı xəbər və eyni mövzuda videoxəbər yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, materiallarda sentyabrın 27-dən başlayan 2-ci Qarabağ müharibəsində Azərbaycanın müxtəlif növ pilotsuz uçuş aparatlarının (PUA) köməyi ilə düşmən hədəflərini ustalıqla məhv etməsindən söz açılıb. Azərbaycanın Müdafiə Nazirliyinin yaydığı görüntüləri təqdim edən nəşr yazır ki, son vaxtlar hücum PUA-larına maraq çoxalıb.

Materiallarda sentyabrın 27-dən başlayan müharibənin Rusiyanın vasitəçiliyi ilə imzalanmış sənəd əsasında dayandırıldığı, razılaşmaya əsasən, Ermənistan tərəfinin Ağdam, Kəlbəcər və Laçın rayonlarını Azərbaycana qaytarmalı olduğu qeyd olunub.

❖❖❖




Özbəkistanın "interpress.uz" portalında ermənilərin Azərbaycanın işğal altındakı torpaqlarında apardıqları vandalizm siyasəti barədə məqalə yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, "İşğal olunmuş ərazilərdən çıxan ermənilər bir daha əsl simalarını göstərdilər" sərlövhəli məqalədə ermənilərin Kəlbəcərdən çıxarkən yaşadıqları evləri, yaxınlıqdakı meşələri yandırdıqları, infrastrukturu məhv etdikləri bildirilib. Qeyd edilib ki, rayon Azərbaycana təhvil veriləndən sonra vandalların qəbiristanlıqları, ziyarətgahları, hətta yolları minaladıqları məlum olub.

Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin, Ermənistanın baş naziri Nikol Paşinyanın və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin müharibənin dayandırılması ilə əlaqədar birgə bəyanat qəbul etdikləri barədə də məlumat verilir.

Bildirilir ki, bu razılaşmaya uyğun olaraq noyabrın 20-də Ağdam rayonu işğaldan azad edilib, Azərbaycan Silahlı Qüvvələri şəhərə daxil olub. Vurğulanır ki, şəhər yerlə-yeksan olunub, Ağdamda 1 dənə də olsun salamat bina, ev qalmayıb, infrastruktur məhv edilib. Kəlbəcər rayonu noyabrın 25-də Azərbaycana təhvil verilib, Laçın rayonu isə dekabrın 1-dək əsl sahibinə qaytarılacaq.

❖❖❖




İndoneziyanın "goodnewsfromindonesia.id" saytı cari ilin sentyabr-noyabr aylarında Azərbaycan və Ermənistan arasında baş vermiş müharibənin dərslərinə həsr olunan analitik məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, Əhyari Hanantonun müəllifi olduğu "Azərbaycan və Ermənistan arasında 2020-ci il müharibəsinin dörd mühüm dərsi" adlı analitik məqalədə Qafqazın iki ölkəsi arasında sentyabrın 27-dən noyabrın 10-dək davam etmiş 44 günlük müharibə barədə ətraflı məlumat verilir. Qeyd edilir ki, müharibə beynəlxalq səviyyədə Azərbaycan ərazisi hesab edilən və ötən əsrin 90-cı illərində Ermənistan ordusu tərəfindən işğal olunan Dağlıq Qarabağ regionu və ətraf rayonların azad olunması uğrunda aparılıb.

Müəllif vurğulayır ki, bu qısa müharibə Azərbaycanın qələbəsi ilə başa çatıb və müharibənin əvvəlindən bu dəfə də qalib gələcəyinə inanan Ermənistanın alçaldıcı məğlubiyyəti ilə yekunlaşıb. Azərbaycan Ordusunun cəbhədə endirdiyi sarsıdıcı zərbələr və qazandığı böyük uğurlar Ermənistanı noyabrın 9-da Rusiyanın vasitəçiliyi ilə təklif edilən məğlubiyyət bəyanatını imzalamağa və dekabrın 1-dək işğal etdiyi bütün torpaqlardan qoşunlarını çıxarmağa məcbur edib.

Məqalədə qeyd edilir ki, müharibənin nəticəsi Azərbaycanda böyük sevinclə, Ermənistanda isə etiraz nümayişləri və iğtişaşlarla qarşılandı. Müəllif vurğulayır ki, heç bir erməni bu müharibəni belə qısa müddətdə, çoxlu sayda canlı qüvvə və texnikanın məhv edilməsi ilə başa çatacağına inana bilmir. Qeyd edir ki, bu qısa və dağıdıcı müharibə Ermənistanda ciddi qarşıdurma və parçalanmaya, Azərbaycanda isə əksinə hökumətin əhali tərəfindən tam dəstəklənməsinə, cəmiyyətdə sıx birliyə və həmrəyliyə səbəb oldu.

Ə.Hanonto bildirir ki, bu müharibə eyni zamanda bütün dünyaya adi silahlarla aparılan müharibələr dövrünün artıq başa çatdığını göstərdi. Azərbaycanın bu real və inandırıcı qələbəsi bütün dünyanın hərbi analitikləri üçün gələcək döyüşlər barədə qısa hərbi dərsə çevrildi. Dünya döyüş meydanında baş verənləri sosial şəbəkələr vasitəsilə izləyərək Türkiyənin "Bayraktar TB2" dronları tərəfindən milyonlarla dəyəri olan zenit-raket qurğularının məhv edilməsinin şahidi oldu.

Məqalədə Azərbaycan rəhbərliyinin ölkədə apardığı böyük ordu quruculuğu, müasir hərbi avadanlıq istehsal edən müdafiə sənayesinin yaradılması ilə yanaşı, İsrail, Türkiyə və Rusiya istehsalı olan pilotsuz uçan aparatları (PUA) və dronları alması barədə də ətraflı məlumat verilir. Qeyd edilir ki, bu gün Azərbaycan Ordusu həm ölkənin öz istehsalı, həm də İsrail, Türkiyə və Rusiya istehsalı olan yüzlərlə növ drona malikdir. PUA-ların Öyrənilməsi Üzrə Mərkəzə istinadla bildirilir ki, hazırda Azərbaycanın cəbbəxanasında "Israel Aerospace Industries" şirkətinin istehsalı olan "Harpy" və "Harop", "Aeronautics Group" şirkətinin hazırladığı "1K Orbiter" kimi dronlar var. Bununla yanaşı, Azərbaycan "Hermes", "Heron" və "SkyStriker" kimi dronlara da malikdir.

Son müharibənin təhlilini aparan müəllif onun dərsləri arasında ilkin olaraq, quru qoşunlarının dronların qarşısını almaq üçün lazımi texniki vasitələrlə təmin edilməsinin zəruriliyini irəli sürür. Qeyd edir ki, məhz bu vasitələrə malik olmayan Ermənistan ordusu böyük və sarsıdıcı məğlubiyyətə uğradı.

Müəllifin qənaətinə görə ikinci dərs quru qoşunlarının PUA-lar sistemi ilə inteqrasiyasının təşkili məhz gələcək müharibələrin əsas tələblərindən birinə çevriləcək. Bu sahədə Türkiyə və Rusiyanın Suriyada aparılan əməliyyatlar zamanı böyük təcrübə qazandığı xüsusi qeyd edilir. Vurğulanır ki, Azərbaycan Ordusu da məhz bu təcrübədən faydalanaraq, dronlarla yerdən atəş sistemi arasında əlaqə kompleksini yarada bilib.

Bu müharibənin növbəti dərsi kimi müəllif dronların düşmənin hava hücumundan müdafiə (HHM) sistemlərinin məhv olunmasında rolunu göstərir. Qeyd edir ki, məhz "Bayraktar TB2" Suriya və Liviyada Rusiya istehsalı olan "Pansir" sistemlərinin sıradan çıxarılmasında mühüm rol oynayıb. Bildirir ki, Azərbaycan hərbçiləri də PUA-lardan səmərəli şəkildə istifadə edərək Ermənistanın HHM sistemlərini sıradan çıxarıb.

Azərbaycan və Ermənistan arasında baş vermiş müharibənin son dərsi kimi müəllif dronlar dövrünün başlaması ilə yanaşı, hərbi deostrateji hesablamaların hələ də əhəmiyyətini itirmədiyini göstərir. Qeyd edir ki, Azərbaycanın texnoloji üstünlüyü onun hərbi gücünü nümayiş etdirsə də, hücum kampaniyası zamanı azad edilmiş ərazilərin təmizlənməsi və müdafiəsi üçün əvvəllər olduğu kimi, adi konsepsiyalardan və sursatdan istifadə edilməlidir. Bunu Azərbaycan Ordusunun PUA-lar vasitəsilə erməniləri sıxışdırması ilə yanaşı, bütün cəbhəboyu digər birgə qüvvələrdən istifadə təcrübəsi də təsdiq edir.

Müzəffər Azərbaycan Ordusunun qısa müharibə zamanı digər uğurlarına da diqqəti cəlb edən müəllif İndoneziyanı da bu təcrübədən faydalanmağa çağırır.

❖❖❖




Misirin "Aldiplomasy" portalı Azərbaycandakı dini konfessiya liderlərinin Qarabağda ermənilər tərəfindən dağıdılan və vandalizm aktına məruz qalan dini abidələrlə bağlı bəyanatının tam mətnini yayıb.

AZƏRTAC xəbər verir ki, portalda Misir ictimaiyyətinə təqdim edilən birgə bəyanatda Azərbaycandakı dini konfessiyaların rəhbərlərinin tarixi-mədəni abidələrimizin bərpası sahəsində görüləcək işlərə xeyir-dua verdiyi qeyd olunur. Bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyev öz müraciət və müsahibələrində ölkənin digər ərazilərindəki kimi, işğaldan azad edilmiş torpaqlarda da bütün dini və mədəni abidələr, ibadət evlərinin bərpa ediləcəyini, hər bir insanın inancına hörmətlə yanaşılacağını, sülh şəraitində birgəyaşayışın təmin olunacağını dəfələrlə vurğulayıb.

Bəyanatda diqqətə çatdırılır ki, əsrlər boyu Azərbaycanda firavan yaşayan və öz dini ayinlərini sərbəst şəkildə yerinə yetirən pravoslav və katolik xristianlar, dağ yəhudiləri, alban-udi xristianları, aşkenazi-Avropa yəhudiləri və digər dini icmaların rəhbərləri Azərbaycanın bu sülhpərvər siyasətini dəstəkləyir, tariximizin və mədəniyyətimizin bərpası sahəsində görüləcək möhtəşəm quruculuq işlərinə xeyir-dualar verirlər.

Bəyanat dünya ictimaiyyətinə müraciətlə tamamlanır: "Biz, Azərbaycandakı dini konfessiya rəhbərləri xarici ölkələrin dövlət və hökumət başçılarına, beynəlxalq təşkilatların rəhbərlərinə, dini liderlərə və dünya ictimaiyyətinə müraciət edərək, onları ölkəmizdə və yaşadığımız bölgədə sülh, əmin-amanlıq və birgəyaşayışın bərqərar olmasına dəstək verməyə çağırırıq!".

❖❖❖




Moldova mətbuatı Fransa Senatında qondarma "Dağlıq Qarabağ respublikası"nın tanınmasına dair qətnamə layihəsinin qəbulu ilə bağlı Azərbaycanın etirazına dair məqalələr dərc edilib.

AZƏRTAC xəbər verir ki, Moldovanın "NOİ.md", "Disug.md", "Point.md", "eNews.md", "AVA.md", "İPN.md" və digər informasiya portallarında dərc olunan məqalələrdə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin Fransa Senatında qondarma "Dağlıq Qarabağ respublikası"nın tanınmasına dair qətnamə layihəsinin qəbuluna münasibətinə, Milli Məclisdə bununla bağlı müzakirə olunan məsələlərə diqqət çəkilib.

Məqalələrdə H.Hacıyevə istinadla qeyd edilir: "Bu qətnamə Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil. Dar siyasi ambisiyalar naminə qəbul olunmuş bu kağız parçası beynəlxalq hüquq normaları, BMT Nizamnaməsi və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin kobudcasına pozulması ilə yanaşı, Fransanın istər Minsk qrupunun həmsədr ölkəsi, istərsə də BMT TŞ-nin daimi üzvü kimi məramı və obyektiv fəaliyyəti ilə bağlı ciddi suallar doğurur".

Bundan başqa, yazılarda Milli Məclisdə Fransa Senatının qəbul etdiyi qətnaməyə etiraz bəyanatının qəbul olunması, Fransanın Minsk qrupunun həmsədrliyindən uzaqlaşdırılması kimi fikirlər də yer alıb.

❖❖❖



"Ermənistan tərəfindən heç bir əsası olmayan hərbi təcavüzə məruz qalan Azərbaycanın ərazi bütövlüyü Avropa İttifaqı tərəfindən tanınır və dəstəklənir".

AZƏRTAC xəbər verir ki, bunu İtaliya Senatında "İrəli İtaliya" siyasi qrupunun üzvü senator Urania Papatheu yerli mətbuata açıqlamasında bildirib.

Senator vurğulayıb ki, İtaliya müharibə başa çatandan sonra vəziyyətin mütəmadi olaraq normallaşması istiqamətində Azərbaycana kömək və dəstək göstərməlidir.

"İtaliyanın Azərbaycanda strateji maraqları cəmləşir, azərbaycanlılar İtaliyanı sevən bir xalqdır. Bu baxımdan İtaliyanın Azərbaycanla münasibətləri yeni istiqamətlər üzrə möhkəmləndirilməsi vacibdir", - deyə Papatheu bildirib.

İtalyan senator əlavə edib ki, işğal olunmuş ərazilərin Azərbaycana geri qaytarılmasını nəzərdə tutan razılaşma İtaliya tərəfindən dəstəklənməlidir. Bu, yeni, qarşılıqlı və strateji perspektivlər baxımından yalnız başlanğıcdır.

"İtaliya yalnız neft və qazla deyil, insan resursları və mədəni sahələrdə də Azərbaycanla əməkdaşlıqda fəal olmalıdır", - deyə italyan senator fikirlərini tamamlayıb.

❖❖❖




Türkiyənin Anadolu agentliyi işğaldan azad olunana Ağdam rayonunun dəhşət saçan görüntülərini əks etdirən "Ağdam 27 il sonra azadlığına qovuşdu" sərlövhəli videomaterial hazırlayıb.

AZƏRTAC xəbər verir ki, videomaterial erməni vandalları tərəfindən dağıntı və təhqirə məruz qalam Ağdam cümə məscidinin görüntülərinin nümayişi ilə başlayır. Sonra məscidin tarixi geniş planda tamaşaçıya çatdırılır. Bunun ardınca şəhərin acınacaqlı mənzərəsi göstərilir. Kadrlardan belə təsəvvür yaranır ki, vaxtilə Qafqazın ən əzəmətli şəhərlərindən sayılan bu məkan sanki vəhşi bir qəbilənin, gəmiricilər sinfinə daxil olan sürünün hücumuna məruz qalıb.

Qeyd edək ki, xarici mətbuat, eləcə də Türkiyənin aparıcı KİV Ağdam rayonunu atom bombasının təsirindən dağıdılıb viran qalan Xirosimaya bənzədiblər.

# Mixail Qusmanın "Anatoli Dobrının. Səfirin həyatından 24 il və 14 gün" filminin Azərbaycanda premyerası olub

Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanın "Anatoli Dobrının. Səfirin həyatından 24 il və 14 gün" adlı sənədli filminin CBC telekanalında premyerası olub. Filmdə SSRİ ilə ABŞ arasında ən dramatik qarşıdurmalardan birindən - 1962-ci ildə başlanmış Karib böhranından bəhs edilir. Bu böhranın nizamlanmasında Anatoli Fyodoroviç Dobrının əvəzsiz rol oynayıb.




Anatoli Dobrının 1962-ci ildə SSRİ-nin ABŞ-da səfiri təyin edilib və demək olar ki, əsrin dörddəbiri qədər bu vəzifədə çalışıb. Bu müddətdə Birləşmiş Ştatlara altı prezident rəhbərlik edib. O vaxt hələ gənc olan sovet diplomatı Anatoli Dobrınının ünsiyyətdə olduğu ilk ABŞ Prezidenti Con Kennedi idi. Dobrının ilə Kennedi arasında etimada əsaslanan münasibətlər yaranması Karib böhranının həllində və daha sonra "Raketdən-müdafiə Sistemlərinin Məhdudlaşdırılması haqqında" Müqavilənin imzalanmasında müstəsna rol oynayıb.

AZƏRTAC xəbər verir ki, filmə nadir sənədli sübutlar və o dövrün mühüm tarixi hadisələrinin bilavasitə iştirakçıları - Anatoli Dobrınının özü, ABŞ-ın sabiq müdafiə naziri Robert Maknamara, Birləşmiş Ştatların ovaxtkı dövlət katibi Henri Kissincer və bir sıra başqa diplomatlarla müsahibələr daxil edilib.

Tarixi-sənədli filmin müəllifi Mixail Qusman Anatoli Dobrınınlə şəxsən tanış idi. Onlar 1975-ci ildə tanış olublar. İllər keçəndən sonra Mixail Qusman sovet diplomatiyasının əfsanəsi ilə geniş müsahibəni lentə alıb və həmin müsahibə filmin süjet xəttinin əsasını təşkil edib. Mixail Qusman bu film barədə azərbaycanlı tamaşaçılara məlumat verərək deyib ki, onun bu ekran əsəri Anatoli Dobrınının 100 illiyinə həsr edilib və bu görkəmli diplomatın xatirəsinə hörmət əlamətidir. Çox cəhətdən məhz Dobrınının səyləri sayəsində dünya nüvə müharibəsi təhlükəsindən xilas olub.

Mixail Qusman sənədli filmin CBC telekanalında göstərilməsindən əvvəl söylədiyi ön sözdə deyib: "Biz dünyamızın nə qədər kövrək olduğunu və çox vaxt özümüz də bunu dərk etmədən fəlakətli həddə yaxınlaşdığımızı, bəşəriyyətin necə dəhşətli təhdidlərlə üzləşməli olduğunu göstərmək istəmişik.

Mən bu filmin hələ yaz aylarında Bakıda göstərilməsini planlaşdırırdım, lakin gözlənilmədən meydana çıxmış pandemiya planlarımızı dəyişdirdi.

Münaqişələrin həllində diplomatik səylərin rolunu lazımınca qiymətləndirmək çətindir. Biz bunu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması nümunəsində aşkar gördük. Rusiya və Azərbaycan prezidentlərinin çox böyük diplomatik səyləri, Ermənistanın baş naziri tərəfindən vəziyyətin başa düşülməsi üçtərəfli bəyanatın imzalanması ilə nəticələndi. Mənə belə gəlir ki, bununla əlaqədar film həm süjet baxımından maraq doğuracaq, həm də dünyamızın bu gün də çox kövrək olduğunu anlamaq üçün ibrət dərsi olacaq".

# Fransanın təxribatları cavabsız qalmayacaq

*Əvvəli 1-ci səh.*

Belə bir təəssürat yaranır ki, "Dağlıq Qarabağ münaqişəsi" ifadəsi tezliklə işlək olmayacaq və siyasi leksikadan çıxacaq.

Bununla belə, Cənubi Qafqazın, ümumiyyətlə, postsovet məkanının ən qədim münaqişəsinin nizamlanmasını bu və ya digər şəkildə əngəlləməyə çalışan dövlətlər var. Bu istiqamətdə canfəşanlıq edənlərdən biri də Fransadır. Paris münaqişə tərəflərindəndən birinə - təcavüzkar Ermənistana çoxdandır tərəf çıxır. Fransa Ermənistanı özünün "bacı"sı elan edərək münaqişənin dondurulmuş vəziyyətdə saxlanması, başqa sözlə, Azərbaycan ərazisinin 20 faizinin erməni işğalı altında qalması üçün əlindən gələni əsirgəmir. Odur ki, Azərbaycan Silahlı Qüvvələrinin işğalçı Ermənistana qarşı apardığı əks-hücum əməliyyatının nəticələri təcavüzkarın böyük "bacı"sını əməllibaşlı narahat edir.

Təbii ki, Azərbaycan hərbi əməliyyatı öz ərazisində keçirdiyindən və BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsini icra etdiyindən Paris Bakının qarşısını kəsmək üçün elə bir əsaslı bəhanə tapa bilməmişdi. Ona görə də başqa yola əl atmışdı: Fransa Prezidenti Emmanuel Makron çətin vəziyyətə düşmüş "bacı"sını xilas etmək üçün əvvəlcə atəşi dayandırmağa çalışmış, bu baş tutmayanda isə Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdəki xristian dini irsinin gələcəyindən narahatlığını ifadə etməyə başlamışdı. Hərçənd bu "narahatlıq" heç bir çərçivəyə sığmırdı. Belə ki, Azərbaycan multikultural, çoxmillətli və çoxkonfessiyalı ölkə olaraq bütün dinlərə eyni münasibət sərgiləməklə dünyada başqalarına nümunə kimi özünü təsdiqləmişdir. Ona görə də Fransa siyasi rəhbərliyinin, ilk növbədə Prezident Makronun Azərbaycana qarşı irəli sürdüyü cəfəng iddia özünü doğrultmamış və sabun köpüyü kimi partlamışdır. Başqa bir iddia - guya Azərbaycanın əks-hücum əməliyyatına Türkiyənin köməyi ilə Suriyadan muzdlu döyüşçülər cəlb etməsi də heç bir tənqidə duruş gətirməmişdir. Prezident İlham Əliyev bu iddianı irəli sürənlərdən birindən - Fransa lideri Makrondan dəlil-sübut tələb etmiş, amma indiyədək cavab ala bilməmişdir.

Fransa siyasi dairələrinin ermənipərəstliyi yeni fakt deyil. Bu ölkənin siyasətçiləri xüsusilə müxtəlif səviyyəli seçkilər zamanı imkanlı erməni icmasının cibinə göz dikirlər. Seçkidə səsvermə başa çatan kimi isə erməni seçicilərinə verilmiş vədlər yaddan çıxır və bir də növbəti seçki ərəfəsində yada düşür. Amma belə bir məqamı da nəzərə almaq lazımdır ki, fransız cəmiyyəti islamofobluğu ilə seçilir. Bu baxımdan ölkənin indiki Prezidenti xüsusilə fərqlənir. Ona görə də Parisin müsəlman ölkələrinə, o cümlədən Azərbaycana münasibətindəki qərəzi az qala hər addımda sezmək mümkündür.

Fransanın yerli idarəetmə orqanlarının Azərbaycanın Dağlıq Qarabağ bölgəsində səngərlənmiş erməni separatçı-terrorçuları ilə məhrəm əlaqələri də təzə deyil. İki il əvvəl Farnsanın bir çox bələdiyyələri Dağlıq Qarabağdakı "bələdiyyə"lərlə "dostluq xartiya"ları imzalamışdı. Sirr deyil ki, Qarabağdakı separatçı-terrorçularla belə "dostluq əlaqələri"nin qurulmasında Fransadakı erməni icması və lobbisi həlledici rol oynamışdır. Lakin o vaxt Azərbaycan tərəfi Fransa məhkəmələri vasitəsilə həmin üzdəniraq xartiyaları ləğv etdirməyə nail olmuşdur. Bu yaxınlarda Paris meriyası yenidən Qarabağ ermənilərini yada salmış, separatçı-terrorçu qurumu tanımaq təşəbbüsü irəli sürmüşdür.

Amma bu da hələ hamısı deyil. Xəbər verildiyi kimi, Fransa Senatı hökuməti Dağlıq Qarabağdakı separatçı-terrorçu qurumu tanımağa çağıran qətnamə qəbul etmişdir. Özü də qətnamədə sağlam təfəkkürdən çox-çox uzaq, birtərəfli və həqiqətə uyğun olmayan bir sıra məqamlar, o cümlədən Azərbaycanı bu il sentyabrın 27-dən bəri işğaldan azad etdiyi ərazilərdən geri çəkilmək kimi gülünc çağırış yer almışdır. Belə çıxır ki, Fransa senatorları ermənidən böyük ermənidirlər. Onlar nəzərə almaq istəməmişlər ki, Azərbaycan Ordusunun öz torpaqlarını işgaldan azad etməsinin zəruriliyi beynəlxalq təşkilatların sənədlərində, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələrində əksini tapmışdır.

Beləliklə, Fransa siyasi elitası erməni "bacı"nın yedəyində getməyi qərarlaşdırmışdır. Fransız siyasətçilər özlərini ölkədəki imkanlı erməni icmasının və lobbisinin girovu olmağa razılaşmışlar, eləcə də islamofobiya xəstəliyindən qurtulmaqdan boyun qaçırmışlar.

Fransa Senatının məlum qətnaməsi növbəti təxribat olaraq hüquqi qüvvəyə malik olmasa da, siyasi məna kəsb edir. Paris münaqişənin tənzimlənməsində ATƏT-in Minsk qrupunun həmsədri kimi neytral vasitəçi rolu oynamaq əvəzinə, təcavüzkar, işğalçı Ermənistanı dəstəkləməyi davam etdirməkdən çəkinmir. Belə olan halda Fransanın ədalətli vasitəçiliyi sual altına düşür. Özü də Fransa Respublikasının Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə əlaqədar rəsmi mövqeyi dövlətin yüksəksəviyyəli nümayəndələri, o cümlədən ölkə Prezidenti və xarici işlər naziri tərəfindən səsləndirilmişdir. Fransa Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləmiş və bu mövqe istər ikitərəfli çərçivədə, istərsə də Avropa İttifaqı ilə imzalanmış sənədlərdə öz əksini tapmışdır. Sözügedən münaqişənin nizamlanmasına dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə Fransa da səs vermişdir. Fransa Xarici İşlər Nazirliyinin nümayəndəsi Senatda keçirilmiş müzakirələrdə çıxış edərkən dövlətin rəsmi mövqeyini bir daha ifadə etmişdir. Amma nə fayda, senatorlar istədiklərindən əl çəkməmişlər.

Bütün bunlar göstərir ki, Fransa Ermənistan-Azərbaycan münaqişəsinin həllinə münasibətdə sözdə bir, əməldə isə başqa cür hərəkət edir. Amma Paris başa düşməlidir ki, bu davranışla özü-özünü ifşa edir. Bundan sonra heç kim Fransanın həm beynəlxalq vasitəçi, həm də tərəfdaş kimi səmimiliyinə inanmaz.

Fransanın maskası artıq yırtılmışdır. Qaradan o tərəfə rəng yoxdur. Sözü ilə əməli üst-üstə düşməyən bir dövlətlə yol yoldaşı olmağa dəyməz. Müstəqil, suveren dövlətin ərazini parçalamağı özünə rəva bilən, separatçılığı, terrorçuluğu dəstəkləyən bir dövlətlə yalnız başa düşdüyü dildə danışmaq lazımdır. Rəsmi Bakı artıq xəbərdarlıq etmişdir ki, Azərbaycanın ərazi bütövlüyünə qəsd edən, onu parçalamaq niyyətinə düşən hər hansı ölkə lazımi cavabı alacaqdır. Ermənistan kimi saysız-hesabsız müharibə cinayətləri törətmiş dövlətə dəstək verənlərlə Azərbaycan bir sırada dura bilməz.

Paris belə bir siyasi xətt götürübsə, şübhəsiz, onun fəsadları ilə qarşılaşmalı olacaq. Fransa postsovet məkanında, o cümlədən Azərbaycanda yetərli mövqelər qazanmışdır. Bakı Parislə qarşılıqlı münasibətlərə xüsusi əhəmiyyət vermişdir. Təsadüfi deyil ki, hazırda ölkəmizdə 50-dən çox fransız şirkəti fəaliyyət göstərir. Lakin Fransa öz hərəkətləri ilə Azərbaycan iqtisadiyyatında qazandığı yeri itirə bilər. Fransa Azərbaycanla düşmənçiliyi davam etdirsə, məsələn, "Total" şirkəti nefti indiki kimi Xəzər dənizində yox, Sevan gölündə axtarmalı olacaq.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün***
***abunə yazılışı kampaniyası başlayıb!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Baş Prokurorluq və Daxili İşlər Nazirliyi işğaldan azad olunmuş ərazilərə səfər etməməklə bağlı vətəndaşlara xəbərdarlıq edib

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu uzun müddət təcavüzkar düşmənin işğalı altında saxladığı əraziləri azad edib.

Azərbaycan Respublikası Baş Prokurorluğunun və Daxili İşlər Nazirliyinin Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, uzun illər vətən həsrətində qalmış vətəndaşların işğaldan azad edilmiş torpaqlarımıza səfər etməyə can atmaları başadüşüləndir. Lakin bəzi vətəndaşlar əvvəlcədən edilmiş xəbərdarlıqlara məhəl qoymayaraq həmin ərazilərə səfər edirlər.

Noyabrın 28-də vətəndaşlar Ş.Hacıyev, F.Hacıyev, Z.Adilzadə və Z.Hüseynov "Toyota Land Cruizer" markalı 90-BL-558 dövlət nömrə nişanlı avtomobillə Füzuli rayonunun Qorqan və Aşağı Seyidəhmədli kəndləri arasında minalanmış ərazi olduğunu bildirən işarəyə məhəl qoymayaraq hərəkəti davam etdirib, nəticədə tank əleyhinə minaya düşərək həlak olublar.

Bir daha əhaliyə xəbərdarlıq edərək təhlükənin mövcudluğunu nəzərə alıb müvafiq icazə olmadan, işğaldan azad olunmuş ərazilər minalardan və digər partlayıcı vasitələrdən tam təmizlənənədək həmin bölgələrə səfər etməmələrini xahiş edirik.

# Əsgər anaları Paşinyandan hesabat tələb edirlər

*Əvvəli 1-ci səh.*

Xatırladaq ki, Akopyan N.Paşinyanın həyat yoldaşını bunkerdən qovduqdan sonra vəzifəsindən uzaqlaşdırılmışdı. Elə buna görə həmin vaxtdan baş nazirin qəzəbinə tuş gəlib. Paşinyan çıxışlarında günahkar axtaranda ilk növbədə Akopyanı hədəfə almışdır.

Bu barədə danışan Ermənistan baş naziri deyib ki, özü həyat yoldaşına "Qarabağ müdafiə ordusu" qərargahının iclasının keçirildiyi bunkeri ziyarət etməyi tapşırmışdı. Bildirib ki, həyat yoldaşı onun göstərişi ilə Xankəndidə generalları ziyarət etmişdi: "Ermənistanın baş nazirinin ailə üzvünün səfərini hərbçilər dəstəkləməli və ruh yüksəkliyi yaratmalı idi. Anna Akopyan Xankəndidəki sığınacaqlarda qida və su paylanması ilə şəxsən məşğul olurdu".

Lakin görünən odur ki, M. Akopyanın A.Akopyanı qovması Paşinyan üçün göydəndüşmə olub və təsadüfi deyil ki, general məğlubiyyətdə ittiham olunan əsas fiqur olub. Paşinyan təmas xəttinin cənub istiqamətindəki hərbi əməliyyatların uğursuzluğunda da M.Akopyanın günahkar olduğunu deyib. "Cəbhənin cənub istiqamətində iflasa uğrayan general, bir neçə il əvvəl müdafiə nazirliyinin büdcəsindən 42 milyon dollar pul mənimsənilməsi səbəbilə başladılan cinayət işində ittiham olunduğunu unudaraq mətbuat konfransı keçirir", - deyə baş nazir bildirib.

### Əsgər valideynlərinin etirazları səngimir

Təbii ki, günahkar axtarışı və Paşinyanın digər tədbirləri Ermənistanda vəziyyətin yaxşılaşdırılmasına xidmət etmir. Əksinə, ölkədə vəziyyət gündən-günə ağırlaşır. Hakimiyyət orduda müəyyən işlər gördüyünü iddia etsə də, əvvəllər də müşahidə olunan qanun pozuntuları daha geniş miqyas almağa başlayıb. Erməni ordusunda qeyri-döyüş şəraitindəki itkilər yenə də çoxdur. Bütün bunlar isə, ilk növbədə, Ermənistanda əsgər valideynlərinin hakimiyyətə qarşı daha sərt mövqedən çıxış etməsinə səbəb olub.

Əsgər anaları hökumət binasının qarşısında növbəti etiraz aksiyası keçiriblər. Onlar hökumətdən əsgərlərin öldürülməsinə son qoyulmasını tələb ediblər. Paşinyan hökumət binası qarşısında etiraz aksiyası keçirən hərbi qulluqçuların yaxınlarını qəbul edib. Görüşdən sonra aksiya iştirakçıları bildiriblər ki, Paşinyan daha iki gün ona möhlət verilməsini xahiş edib. Baş nazir bildirib ki, noyabrın 30-da əsgər analarının suallarına dəqiq cavablar verəcək.

Valideynlərdən Aşot Baqdasaryan bildirib ki, Paşinyan problemlərin araşdırılacağına şəxsən zəmanət versə də, onlar inanmayıblar: "Qeyd etdi ki, son cavabı 30 noyabrdan gec olmadan verəcək. Dedik ki, əgər 30 noyabra qədər son cavab olmasa, özümüz uşaqlarımızın dalınca yola düşəcəyik. Hər şey ona aparır ki, biz uşaqların sağ olmasına inanaq. Bizə deyirlər ki, səsimiz həlak olan hərbçilərin valideynlərindən daha uca çıxır. Ən yaxşı halda gözləyirik ki, uşaqlara məzuniyyət verəcəklər".

Valideynlər övladlarının Ermənistandakı hərbi hissələrə köçürülməsini tələb edirlər. Həmin valideynlərdən biri Mariya Qriqoryan bildirib ki, müharibə müddətində orduda aclıq, səfalət, qanunsuzluq hökm sürüb: "Əsgərlərə lazımi qədər qida vermirlər, onlar aclıqdan əziyyət çəkirlər. Geyimlər isə köhnə və yararsızdır. Övladıma daim bağlamalar, alt paltarı, geyim, çəkmələr alıb göndərirdim. Bəs hanı orduya edilən kömək?! İllərdir heç nə dəyişməyib, əsgərlərin yeməyi, geyimi oğurlanmaqda davam edir. Bu oğurluqlar əsgər ölümü ilə nəticələnən hadisələrə səbəb olur, bunu hamı bilir. Hətta bir dəfə nəzarət-buraxılış məntəqəsində olarkən ət oğurluğunun şahidi oldum".

Müharibədə məhv olmuş erməni hərbi qulluqçularının valideynlərindən Ruzan Melkumyan isə bildirib ki, hakimiyyətdə olanlar ordunun hesabına yenidən varlanmaq istəyirlər: "Onlar əsgər ölümlərinin qarşısını almaq üçün tədbir görmək əvəzinə, yeni ölümlərə şərait yaratdılar. Valideynlər isə səslərini çıxarmırlar. Hansı əsaslarla erməni əsgərlərini Qarabağın sərhədlərini qorumağa aparırdılar və niyə orada öldürürdülər? Bizim övladlarımızın ora aparılması tamamilə qanunsuz idi".

Göründüyü kimi, Ermənistandakı böhran və tənəzzül bu ölkənin ordusunda da acınacaqlı durumun yaranması ilə müşayiət olunur. Orduda korrupsiya, rüşvətxorluq, özbaşınalıq həmişəki kimi geniş vüsət alıb. Baş verən qanunsuzluqlar fonunda gənclər hərbi xidmətə getməkdən imtina edir, valideynlər övladlarını ordudan yayındırırlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## İraqda etiraz aksiyasının 3 iştirakçısı qətlə yetirildi

İraqın cənubunda yerləşən Zikar əyalətinin Nəsiriyyə şəhərində şiələrin lideri Müqtəda əs-Sədrin " "Sədr" hərəkatının tərəfdarları ilə etirazçılar arasında toqquşmalar baş verib.

İraq DİN-dən "Anadolu" agentliyinə bildiriblər ki, toqquşmalar nəticəsində 3 etirazçı həlak olub, 70-dək insan yaralanıb. Onların arasında asayiş keşikçiləri də var. Şəhərdə gərginlik davam edir.

Şiə ilahiyyatçısının tərəfdarlarından ibarət qrup etirazçılara hücum edib, onların çadırlarını yandırıb. Bunun ardınca Nəsiriyyə Polis İdarəsinin rəisi vəzifəsindən kənarlaşdırılıb və şəhərdə komendant saatı tətbiq olunub.

## Türkiyə Somalidə terror aktlarını qətiyyətlə pisləmişdir

Ankara noyabrın 27-də və 28-də Şərqi Afrika ölkəsi- Somalidə baş verən terror aktlarını qətiyyətlə pisləyib.

Türkiyə XİN bildirir ki, cümə günü paytaxt Moqadişoda hava limanı yaxınlığındakı kafedə, şənbə günü isə Abdiəziz rayonunda törədilmiş terror aktları nəticəsində azı 8 nəfər həlak olub və 10 nəfər yaralanıb.

"Yuxarıda qeyd olunan terror aktlarını qətiyyətlə pisləyir, qardaş xalqa və Somali hökumətinə dərin hüznlə başsağlığı veririk. Həlak olanların qohumlarına dərin hüznlə başsağlığı veririk, xəsarət alanların tezliklə sağalmasını arzulayırıq", - deyə xarici siyasət idarəsinin bəyanatında bildirilir.

# ALLAH RƏHMƏT ELƏSİN!

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Ağsu Rayon İcra Hakimiyyətinin başçısı

**VAHİD TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rəhbərliyi və kollektivi Azad Müəllimlər Birliyinin sədri, UNEC İctimai Nəzarət Şurasının üzvü, tanınmış təhsil eksperti

**MƏLAHƏT MÜRŞÜDLÜNÜN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Hüseyn İsmayılov və Rafiq Hüseynov Azərbaycan Respublikası müdafiə nazirinin müavini, Hərbi Hava Qüvvələrinin komandanı, general-leytenant Ramiz Tahirova əzizi

**KAMİL SEYİD MAHMUD OĞLUNUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1980-ci il buraxılış X[A] sinif məzunları sinif yoldaşları Hüseyn Fərzəliyevə anası

**MAYA CAMALOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 7466
Sifariş 2653
Qiyməti 40 qəpik